Rəsmi dövlət qəzeti



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 36 (8059) CÜMƏ AXŞAMI, 14 fevral 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az


# İlham Əliyevin islahatlar gündəliyi

## Və Azərbaycanın yeni hədəflərə doğru sürətli inkişafı



**İlham Əliyev hələ 2016-cı ildə "Biz dərin islahatlar dövrünə qədəm qoyuruq" bəyanatını verəndə bu prosesin belə geniş miqyası əhatə edəcəyini heç də hamı gözləmirdi. Amma innovativ təşəbbüsləri, qlobal mahiyyətli planları ilə daim fərqlənən və onları uğurla tətbiq edən ölkə rəhbəri ötən üç il ərzində də islahat proqramlarının sayını dəfələrlə artırmaqla, onların sistem ardıcıllığını təmin etməklə, ən əsası isə demək olar ki, bütün sahələrə yönəltməklə bu dəfə də ictimaiyyəti yaxşı mənada təəccübləndirməyi bacardı.**

### İslahatların məqsədi nədir, nəticəsi nə olacaq?

Prezidentin "Real" televiziyasına müsahibəsinin əsas leytmotivini də məhz bu islahatların gedişinin təhlili kimi səciyyələndirmək olar. Mətbuatın durumundan sosial-iqtisadi vəziyyətə, lokal planlardan qlobal layihələrə, dövlət-vətəndaş münasibətlərindən hərbi quruculuğa qədər, bir sözlə, cəmiyyətin və dövlətin bütün sahələri üzrə yığcam, amma müfəssəl baxışlarını açıqlayan ölkə rəhbərinin bir fikri bu mülahizələri konkretləşdirdi: Azərbaycanda aparılan islahatlar hansısa istiqamətlər üzrə və müəyyən mərhələ üçün deyil, əksinə, onlar davamlı sistem islahatlarıdır.

Bir məqamı unutmayaq: hələ 1993-cü ildə - böyük faciələrin, böhranların, dövlətçiliyin süqutunun yaşandığı o məşəqqətli dövrdə Heydər Əliyevin xaosdan quruculuşa keçidi uğurla tətbiq etməsi və ardınca başlatdığı islahatlar 26 il sonra yeni keyfiyyət mərhələsinə qədəm qoyan islahatların təməli, möhkəm zəminidir. Bu həqiqəti xatırladan Prezident siyasi kursun varisliyinin həm də islahatlar konsepsiyası üzrə də təmin edildiyini vurğuladı.

Yəni, yol, istiqamət və hədəflər eynidir. Sadəcə, yeni dövrün çağırışları, müasir tələblər islahatlar kursunun daim təkmilləşməsini, qlobal meyillərə uyğunlaşdırılmasını tələb edir.

Lakin 2016-cı ildə başlayan və artıq dördüncü ilinə qədəm qoyan islahatlar indiyədək olmadığı qədər köklü dəyişikliklərin, genişmiqyaslı yeniliklərin təcəssümüdür. Son islahatlar miqyasına görə olduqca genişdir və hər sahə üzrə konkret plan, layihə və vəzifə-məsuliyyət bölgüsü düzgün müəyyənləşdirilib. Yeni dövrün çağırışlarına adekvat olan islahatların uğurlu gedişini təmin etmək məqsədilə aparılan hüquqi-qanunvericilik təkmilləşməsi davamlı hal alıb. Xüsusən də Konstitusiyaya edilən son əlavə və dəyişikliklər islahatların hüquqi tənzimlənməsini və yeniləşən sistemə uyğunlaşdırılmasını əsasən formalaşdırıb.

İlham Əliyevin "daha güclü, daha inkişaf edən Azərbaycan, daha rifahlı vətəndaş" konsepsiyasını həyata keçirməli olan hakimiyyət institutları da məhz bu yeni situasiyaya uyğun təkmilləşdirilir, struktur islahatlarının tərkib hissəsinə çevrilir.

### Prezidenti görərkən dərd də unudulur, acı da yaddan çıxır

Təşəbbüskarlıq, çeviklik, səmərəlilik, şəffaflıq, məsuliyyət kimi dəyərlər Prezidentin məmurlardan hər zaman əsas tələbi idi. İndi isə bunlar Prezidentin həlledici, daha doğrusu yeganə etimad meyarıdır və bunu ölkə rəhbəri müsahibəsində xüsusi vurğuladı. İlham Əliyev yeni inkişaf strategiyasının icrasını indi öz sahəsində onilliklər boyu təcrübə qazanmış mütəxəssislərə, eyni zamanda gənclərdən ibarət peşəkarlar komandasına həvalə edib. Komandanın tərkibi cəmiyyətdə də rəğbətlə qarşılanır və İlham Əliyev iqtidarı ictimai rəydə alternativsizliyini birmənalı qoruyur.

Prezident yeni islahatlar dövründə hakimiyyətin fəaliyyətini, təşəbbüslərini qaneedici sayır və bu təəssüratın xalqla görüşlərdə möhkəmləndiyini deyir. Şübhəsiz ki, islahatların əsas təmayülü sosial-iqtisadi məzmunda olduğu kimi, ümumilikdə iqtidarın fəaliyyət prioriteti də məhz bu yönümdədir. Son dövrlərdə ölkədə iqtisadi inkişafın stimullaşdırılması və əhalinin sosial rifahının artırılması kontekstində atılan ardıcıl addımlar, qəbul edilən qərarlar cəmiyyətdə böyük razılıqla qarşılanıb.

Əlbəttə, əhalinin öz maaşının, müavinətinin, təqaüdünün artırılmasına sevinməsi qeyri-adi hal deyil. Fəqət bu prosesin əlahiddəliyi odur ki, əhali büdcəyə daxil olan əlavə vəsaitin yalnız bir istiqamətə - vətəndaşların sosial durumunun yaxşılaşdırılmasına yönəldiyini görür, dərindən anlayır və bunu qiymətləndirir.

Ötən ilin aprelində xalq tərəfindən növbəti ümummilli etimad mandatı alan İlham Əliyevin son dövrlərdəki fəaliyyəti bu inamın səviyyəsini daha da yüksəldib. Məsələn, evi zəlzələdə dağılmış, böyük psixoloji sarsıntı içində olan insanlar Prezidenti görərkən bütün çətinliklərini unudur, onu öz doğması kimi qarşılayır, ağbirçək öz alqışını, ağsaqqal duasını, gənclər də heyranlıqlarını bildirirlər. Bir anda dərd də unudulur, acı da yaddan çıxır.

Bu, heç də yalnız vətəndaşın "problemimi İlham Əliyev həll edəcək" qənaətinə sahib olması ilə bağlı deyil. Yəni, belə psixoloji məqamın əsla maddi anlamı yoxdur, bu, birbaşa Liderə güvənin, sevginin, verilən dəyərin əyani təzahürüdür.

Məsələn, Şamaxıda Prezidentlə görüşən 92 yaşlı Saray Eyvazovanın elə bizim qəzetin əməkdaşı ilə söhbətinə nəzər salaq: *"Həyətdə oturub fikirləşirdim. Öz-özümə deyirdim ki, kaş İlham Əliyev indi gəlib dadımıza çata. Çarəsiz idim, bir də gördüm ki, qapı açıldı, gələn Prezident idi. Əvvəl dağıntıya baxdı. Sonra mənə tərəf gəlməyə başladı. Dedim qoca olsam da, durum ayağa, öpüm gözlərindən. Qurban olum gələn ayaqlarına... Əlləri ilə çiynimdən tutub dedi ki, qalxma. Əyilib üzümdən, gözlərimdən, əlimdən öpdü".*

Səmimiyyətin, sevginin ən parlaq göstərici olan bu sözləri Prezidentin yüksək tribunadan enərək qarşısına qədər gəldiyi ahıl şəhid anası da, mükafatı almaq üçün rəhbərinin yanına qalxmağa hazırlaşan, amma bir anda rəhbərinin onun yanına düşməsini görən gənc əlil həmvətənimiz də səsləndirir, saysız-hesabsız sadə azərbaycanlılar da bu qənaəti bölüşür.

### İlham Əliyevin yolu - Azərbaycanın hədəfi

Bu ünsiyyətə vətəndaş-dövlət münasibətlərinin yeni formatı demək olar, amma sadə xalqın buna elə sadə də izahı var: İlham Əliyev üslublu, ürəkləri dağa döndərən görüşlər. Bu üslub qarşılıqlı etimadı, güvəni, hörməti, sevgini əks etdirir. Həmçinin Prezidentin "Azərbaycan vətəndaşı bilir ki, ən ağır vəziyyətdə dövləti onun yanında olacaq, dövlət də tam əmindir ki, vətəndaş hər zaman dövlətin arxasındadır" əminliyini tam mənada ifadə edir.

Prezidentin islahatların əsas hədəfləri ilə bağlı son açıqlaması isə hər kəsdə konkret təsəvvür yaratdı. Ölkə rəhbərinin strateji məqsədi Azərbaycanın inkişaf etmiş dövlətlərin cərgəsinə qoşulması və daha qüdrətli, daha müasir ölkəyə çevrilməsidir. Buna doğru gedilən yolda əsas istiqamət dövlət idarəçiliyi mexanizminin daha da təkmilləşdirilməsi və mobilləşdirilməsi, onun xalqa əlçatanlığının və xidmət əmsalının yüksəldilməsi, əhalinin problemlərinin, sosial qayğılarının daha səmərəli metodlarla həlli, ən nəhayət, Qarabağ münaqişəsinin Azərbaycanın maraqlarına uyğun nizamlanmasıdır.

Yəni, Prezident daha güclü Azərbaycan, daha rifahlı xalq, daha müasir cəmiyyət arzulayır və buna doğru düzgün yolla gedir.

Yolunuz yolumuzdur, cənab PREZİDENT!..

**İxtiyar HÜSEYNLİ,**
***"Azərbaycan"***



# Prezidentin vətəndaşlarla hər ünsiyyəti möhtəşəm görüşə, el bayramına çevrilir



## Əbədi ehtiram ünvanı

Fevralın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Beyləqan rayonuna səfərə getdi.

AZƏRTAC xəbər verir ki, dövlət başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin Beyləqan şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoydu.

Beyləqan Rayon İcra Hakimiyyətinin başçısı Asif Ağayev rayonda görülən işlər haqqında dövlət başçısına məlumat verdi.

Prezident İlham Əliyev müvafiq tapşırıqlarını verdi.

# Ali Baş Komandan əsgər süfrəsində

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev fevralın 13-də Müdafiə Nazirliyinin Beyləqan rayonu ərazisində yeni inşa edilmiş "N" saylı hərbi hissəsində yaradılan şəraitlə tanış olub.



AZƏRTAC xəbər verir ki, müdafiə naziri general-polkovnik Zakir Həsənov və Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkov Prezident, Ali Baş Komandan İlham Əliyevə raport verdilər.

Azərbaycanın iqtisadi inkişafı Silahlı Qüvvələrin də müasir standartlara cavab verən peşəkar orduya çevrilməsində mühüm rol oynayıb. Təbii ki, güclü ordunun yaradılması həm də güclü hərbi-sənaye kompleksinin mövcudluğu ilə şərtlənir. Bu məsələyə vaxtında lazımi diqqət göstərən Prezident İlham Əliyevin rəhbərliyi ilə 2005-ci ildə ölkədə müdafiə sənayesinin əsasının qoyulması və bu sahədə istehsalyönümlü müəssisələrin fəaliyyətə başlaması Azərbaycan Ordusunun maddi-texniki bazasını daha da gücləndirib. 2019-cu ildə Prezident İlham Əliyevin Müdafiə Sənayesi Nazirliyinin əsasında "Azərsilah" ASC-nin yaradılması ilə bağlı imzaladığı fərman da Silahlı Qüvvələrin müasir tələblərə cavab verən müdafiə təyinatlı məhsullarla təmin olunmasında əhəmiyyətli rol oynayacaq. Ölkədə hərbi xərclərin artırılması hərbçilərin sosial vəziyyətinin əhəmiyyətli dərəcədə yaxşılaşmasına səbəb olub. Son illərdə hərbi qulluqçuların sosial müdafiəsinin gücləndirilməsi sahəsində sistemli tədbirlər görülüb. Hərbi qulluqçuların rütbə və vəzifə maaşları artırılıb, onlar üçün paytaxtda və bölgələrdə xidməti yaşayış binaları tikilib. İndi Azərbaycan Silahlı Qüvvələri dünyanın ən güclü 50 ordusu sırasındadır. Bunu beynəlxalq hərbi tədqiqat mərkəzlərinin hesabatları da təsdiqləyir. Bu nəticəyə isə hərbi potensialın gücləndirilməsi, qoşun birləşmələrinin döyüş hazırlığının müasir standartlar səviyyəsində qurulması sayəsində nail olunub. İndiyə qədər ordunun döyüş qabiliyyətinin daha da artırılması, əməliyyat işləri üzrə hazırlığın gücləndirilməsi, idarəetmənin təkmilləşdirilməsi ilə bağlı birlik və birləşmələrin xeyli sayda komanda-qərargah təlimi keçirilib. Bu təlimlərə Silahlı Qüvvələrin müxtəlif qoşun birləşmələri cəlb olunub. Ordumuzun gücünü son illərdə keçirilən hərbi paradlarda nümayiş etdirilən canlı qüvvə və hərbi texnikadan da görmək olur.

Dövlət başçısına məlumat verildi ki, 13 hektar ərazidə yerləşən hərbi hissənin inşasına 2017-ci ildən başlanılıb. Artıq tikintinin birinci mərhələsi başa çatdırılıb.

*Ardı 4-cü səh.*

# Prezidentin vətəndaşlarla hər ünsiyyəti

## 26 min nəfərə və 7 yaşayış məntəqəsinə PREZİDENT hədiyyəsi



Fevralın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Beyləqan rayonuna səfəri çərçivəsində Mingəçevir-Stansiya Mingəçevir-Bəhrəmtəpə-Beyləqan avtomobil yolunun açılışında iştirak edib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov dövlət başçısına yolun göstəriciləri barədə məlumat verdi.

Regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarına uyğun olaraq son illərdə yol infrastrukturunun müasirləşdirilməsi istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir. Avtomobil yollarının tikintisi və yenidən qurulması işlərinin həcmi ildən-ilə artır. Hazırda respublikanın yol infrastrukturunun yenidən qurulması və təkmilləşdirilməsi ilə bağlı beynəlxalq maliyyə qurumlarının əsaslı vəsait qoyuluşları ilə yanaşı, dövlət büdcəsi vəsaiti hesabına da irimiqyaslı layihələr uğurla icra olunur. Prezident İlham Əliyevin sərəncam və göstərişlərinə əsasən, indi əsas diqqət regionlarda kənd və qəsəbələri birləşdirən, həmçinin yaşayış məntəqələrinin daxili yollarının təmirinə və yenidən qurulmasına yönəldilib. Bu tədbirlər, ilk növbədə, Azərbaycan iqtisadiyyatının gücünü göstərməklə yanaşı, vətəndaşların rifahının yaxşılaşdırılmasına yönələn layihələrin davamlı olduğunu nümayiş etdirir. Belə layihələrdən biri də Mingəçevir-Stansiya Mingəçevir-Bəhrəmtəpə-Beyləqan avtomobil yolunun tikintisidir.

Məlumat verildi ki, bu yol 26 min nəfər əhalinin yaşadığı 7 yaşayış məntəqəsini birləşdirir. Mingəçevir-Stansiya Mingəçevir-Bəhrəmtəpə-Beyləqan avtomobil yolunun tikintisinə dövlət büdcəsinin investisiya xərclərindən 14,6 milyon manat ayrılıb. Uzunluğu 20,5 kilometr olan yolun hərəkət hissəsinin eni 6-14 metrdir. İki və dörd hərəkət zolaqlı yol yüksək keyfiyyətlə tikilib. Yol boyunca üç avtobus dayanacağı, suötürücü borular, 78 yol nişanı və göstərici lövhələr quraşdırılıb. Uzunluğu 73 min metr olan yol-cizgi xətləri çəkilib, dörd körpü əsaslı təmir edilib. Prezident İlham Əliyevə Beyləqan rayonunun Kəbirli-Eyvazalılar-Birinci Aşıqlı-Əlinəzərli avtomobil yolunun yenidən qurulması layihəsi barədə də məlumat verildi. Bildirildi ki, dördüncü texniki dərəcəli yolun ümumi uzunluğu 39,4 kilometrdir. İki hərəkət zolaqlı yolun hərəkət hissəsinin eni altı metrdir.

İyirmi iki min nəfər əhalinin yaşadığı səkkiz yaşayış məntəqəsini birləşdirən yolun təmiri yük və sərnişin daşınmasının daha da yaxşılaşdırılmasına imkan verəcək.

Dövlət başçısı Mingəçevir-Stansiya Mingəçevir-Bəhrəmtəpə-Beyləqan avtomobil yolunun rəmzi açılışını bildirən lenti kəsdi.

Ölkəmizdə yol infrastrukturunun yenilənməsi və müasirləşdirilməsi istiqamətində aparılan işlərin ardıcıl və keyfiyyətlə davam etdirilməsi Azərbaycanın iqtisadi inkişafının göstəricilərindən biridir. Bu işlər, eyni zamanda, davamlı tərəqqinin əsas amillərindəndir. Son illər Prezident İlham Əliyevin birbaşa tapşırıq və sərəncamlarına əsasən yolların müasir səviyyədə yenilənməsi işinə xüsusi diqqət göstərilir. Mühüm məqamlardan biri də odur ki, bu layihələr qısa müddətdə və yüksək keyfiyyətlə icra olunur.

Dövlət başçısı yol inşaatçıları ilə görüşdü.

Sonda xatirə şəkli çəkdirildi.



# Azərbaycan idmançıları dünya miqyasında ən yüksək zirvədədirlər







Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 13-də Beyləqan Olimpiya İdman Kompleksinin açılışında iştirak edib.

AZƏRTAC xəbər verir ki, dövlət başçısı kompleksin rəmzi açılışını bildirən lenti kəsdi, burada yaradılan şəraitlə tanış oldu.

Gənclər və idman naziri Azad Rəhimov Beyləqan Olimpiya İdman Kompleksində yaradılan şərait barədə Azərbaycan Prezidentinə ətraflı məlumat verdi.

Bildirildi ki, kompleksin tikintisinə 2018-ci ildə başlanılıb. Prezident İlham Əliyevin sərəncamları ilə olimpiya idman kompleksinin tikintisinin davam etdirilməsinə ümumilikdə 17,5 milyon manat vəsait ayrılıb. Yüksək keyfiyyətlə aparılan tikinti işləri bu ilin fevralında başa çatdırılıb. Kompleks müasirliyi ilə diqqəti cəlb edir. Bu, ölkəmizdə istifadəyə verilən sayca 45-ci olimpiya idman kompleksidir. Ümumi ərazisi 2,6 hektar olan idman qurğusunda bütün zəruri infrastruktur yaradılıb.

Diqqətə çatdırıldı ki, 820 tamaşaçı yeri olan universal idman salonunda idmanın müxtəlif növləri üzrə yarışlar təşkil etmək mümkündür. Belə komplekslərin yaradılması Azərbaycanın idman ölkəsi kimi nüfuzunu yüksəltməklə yanaşı, regionlarda yaşayan gənclərin idmana həvəsinin artırılması, onların potensialının üzə çıxarılması və ümumilikdə idmanın kütləviliyinin təmin edilməsində mühüm rol oynayır. Beyləqan Olimpiya İdman Kompleksinin stolüstü tennis, bilyard, Şərq döyüş və trenajor zallarında idmançılar üçün hərtərəfli şərait yaradılıb. Məşqçilərin otaqları da məhsuldar fəaliyyət üçün hər cür imkana malikdir. Boks zalında məşqlərin keçirilməsi və yarışların təşkili üçün mükəmməl şərait var. İdmançılara həkim nəzarəti də yüksək səviyyədə təşkil olunub. Güləş zalı Beynəlxalq Güləş Federasiyasının standartlarına uyğun tikilib. Güləşçilərin məşqlərinin yüksək səviyyədə keçirilməsi üçün ən xırda incəliklər belə nəzərə alınıb. Buradakı üzgüçülük hovuzu ən müasir standartlara cavab verir. Hovuzun uzunluğu 25 metr, eni isə 12,5 metrdir. Ölkəmizdə yeniyetmə və gənclərin idmanın üzgüçülük növünə də marağı ildən-ilə artır. Bu zalda üzgüçülük yarışlarını 162 nəfər izləyə biləcək.

Kompleksin əhəmiyyətini artıran cəhətlərdən biri də burada müasir mehmanxananın yaradılmasıdır. Əlli yerlik mehmanxanada idmançıların qalması və istirahəti üçün hər cür imkan var. Mehmanxanada birnəfərlik, ikinəfərlik, üçnəfərlik, VIP otaqlar və 50 yerlik konfrans zalı mövcuddur.

Qeyd edildi ki, Beyləqan Olimpiya İdman Kompleksinə daxil olan restoran və mətbəxdə də xidmətin müasir səviyyədə təşkili üçün hər cür şərait yaradılıb.

Beyləqan Olimpiya İdman Kompleksi ilə tanışlıqdan sonra Prezident İlham Əliyev idmançılarla və rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü.

Görüşdə çıxış edən dövlət başçısı **İlham ƏLİYEV** dedi:

- Bu gün Beyləqan rayonunda çox əlamətdar bir gündür. Beyləqanda olimpiya idman kompleksi açılır. Bu münasibətlə sizi ürəkdən təbrik edirəm. Çox gözəl idman mərkəzidir. Burada idmanla məşğul olmaq üçün bütün şərait var. Bu mərkəzin həm xarici görünüşü, həm də daxili tərtibatı çox gözəldir. Məşq zalları, cüdo, güləş, boks üzrə xüsusi məşq zalları, üzgüçülük hovuzu, böyük idman salonu, stadion. Eyni zamanda, bu mərkəzdə 50 nəfərlik hotel də yerləşir. Beləliklə, Beyləqana gələn qonaqlar burada rahat qala bilərlər.

Bu mərkəzin yaradılması bizim idman siyasətimizin təzahürüdür, onu göstərir ki, doğrudan da, Azərbaycan idman dövlətidir. Biz çalışırıq bütün bölgələrdə, hər bir rayonda müasir idman kompleksləri tikilsin ki, gənclər, uşaqlar, yeniyetmələr idmanla məşğul olsunlar. Bu şəraiti biz yaradırıq. Deyə bilərəm ki, bu olimpiya idman kompleksi ən yüksək dünya standartlarına cavab verir. Burada bizim gənc idmançılarımız məşq edəcəklər, yarışacaqlar və beləliklə, ölkəmizin idman şöhrətini yüksəklərə qaldıracaqlar.

Bütün bölgələrdə bu istiqamətdə işlər gedir. Bu il əlavə iki olimpiya idman mərkəzinin açılışı gözlənilir. Yəni, Azərbaycan dövləti bu istiqamətdə öz siyasətini aparır. Bunun nəticəsində bizim idmançılarımız beynəlxalq yarışlarda, dünya, Avropa çempionatlarında, Olimpiya Oyunlarında yüksək nəticələr qazanırlar. Hər bir Azərbaycan vətəndaşı fəxr edir ki, idmançılarımız bu gün dünya miqyasında ən yüksək zirvədədirlər. Bunu Olimpiya Oyunları da göstərir. Keçən Yay Olimpiya Oyunlarında medalların sayına görə bizim komandamız dünya miqyasında 14-cü yerdə idi. Bu, tarixi bir qələbədir. Çünki biz bir çox inkişaf etmiş ölkələri qabaqlamışıq. Dünya və Avropa çempionatlarında da bizim idmançılarımız ən yüksək nəticələr göstərərək bayrağımızı zirvələrə qaldırırlar.




Əlbəttə ki, idmanla məşğul olmaq üçün şərait olmalıdır. Bu şərait yaradılır. Bakı şəhərində ən mötəbər idman yarışları keçirilir - Avropa Oyunları, İslam Həmrəyliyi Oyunları, dünya çempionatları. Bölgələrdə bu şərait yaradılır ki, idmançılar, gənclər idmanla məşğul olsunlar. Əminəm ki, rayon sakinləri də bu imkanlardan istifadə edəcəklər. Çünki hər bir vətəndaş idmanla məşğul olsa, daha sağlam olar. Çünki idman sağlamlığın rəmzidir. İdmançılar həm fiziki, həm də mənəvi cəhətdən sağlam olurlar. Bizim idmançılarımız yarışlarda da, məişətdə də yüksək nümunə göstərirlər. Biz idmançılarımızla haqlı olaraq fəxr edirik. Bizim görkəmli idmançılarımız, Olimpiya çempionlarımız, dünya çempionlarımız,- onlardan biri bu gün burada iştirak edir,- bizim fəxrimizdir. Onlar gənclər üçün gözəl nümunə göstərirlər. Gənclər vətənpərvər, peşəkar, fiziki cəhətdən güclü olmalıdırlar.

Mən görürəm, Beyləqan idmançılarının medalları kifayət qədər çoxdur. Siz bu medalları yarışlarda qazanmısınız. Beyləqanda çox güclü güləş məktəbi vardır. Bu ənənələr yaşayır, yaşayacaq. Əminəm ki, bundan sonra da Beyləqan ölkəmiz üçün gözəl idmançılar yetişdirəcəkdir. Biz isə çalışacağıq ki, bundan sonra da idmanın inkişafı ilə bağlı lazımi addımları ataq. Çünki idman Azərbaycanda dövlət siyasətidir. Bunu demək olar ki, bütün beynəlxalq idman qurumları qeyd edir, yüksək qiymətləndirir və məhz buna görə Azərbaycanda çox böyük beynəlxalq yarışlar keçirilir.

Beyləqan rayonunun inkişafına daim diqqət göstərilir, bu istiqamətdə işlər görülür, infrastruktur layihələri, sosial layihələr icra edilir. Misal üçün, indi Beyləqan rayonunda qazlaşdırmanın səviyyəsi 97 faizdir. Yaxın zamanlarda bu, 100 faizə çatacaq. Nəzərə alsaq ki, bir neçə il bundan əvvəl qaz təchizatı çox aşağı səviyyədə idi, bu, çox böyük göstəricidir. Bu gün fəaliyyətə başlayacaq yeni yarımstansiya Beyləqan rayonunun elektrik enerjisi ilə təminatını böyük dərəcədə yaxşılaşdıracaq və bu sahədə də heç bir problem olmayacaq.

Bu gün biz yeni yolun açılışını qeyd etdik. Gələcəkdə bu istiqamətdə işlər aparılacaq ki, kənd yollarının təmiri, bərpası, tikintisi daha da geniş vüsət alsın. Bugünə qədər bir neçə layihə icra edilmişdir. Bunlar daha da geniş miqyasda icra edilməlidir. 2016-cı ildə Beyləqan şəhərinin içməli su problemi öz həllini tapdı. İndi isə kanalizasiya sisteminin yenidən qurulması, təmizləyici qurğuların quraşdırılması prosesi gedir. Yəni, bütün əsas infrastruktur layihələri icra edilir.

Sahibkarlığa dəstək göstərilir, güzəştli şərtlərlə kreditlər verilir. Beyləqanda üç aqropark yaradılıbdır. Vətəndaşlar orada çalışırlar, işləyirlər. Kənd təsərrüfatı müasir səviyyədə inkişaf etdirilir. Mənim göstərişimlə Azərbaycanın rayonlarında ödənişli ictimai işlər yaradılıb. Bu il ən azı 30 min ictimai iş yaradılacaq. Həm Bakıda, böyük şəhərlərdə, bütün rayonlarda, o cümlədən Beyləqan rayonunda yüzlərlə ödənişli ictimai iş yaradılıb ki, hələlik iş tapa bilməyən vətəndaşlar bu işlərə cəlb olunsunlar və maaş alsınlar.

Yəni, rayonun inkişafı ilə bağlı ardıcıl siyasət aparılır. Əlbəttə ki, sosial infrastruktur da burada çox böyük əhəmiyyət daşıyır. Bilirsiniz ki, Beyləqanda 140 çarpayılıq mərkəzi rayon xəstəxanası, bir çox məktəblər tikilmişdir. İndi mənə dedilər ki, Dünyamalılar kəndində yerləşən məktəb uyğunlaşdırılmış binadadır. O məktəbin tikintisi ilə bağlı göstəriş veriləcək. Gözəl olimpiya kompleksi yaradılıb, digər sosial obyektlər, Gənclər Mərkəzi fəaliyyət göstərir. Yəni, bir sözlə, rayonun inkişafı kompleks xarakter daşıyır və əminəm ki, Beyləqan rayonu bundan sonra da yüksək nəticələr göstərəcək və vətəndaşlar burada qurub yaradacaq, ümumi işimizə töhfə verəcəklər.

Mən sizi bu gözəl hadisə münasibətilə təbrik etmək istəyirəm. İdmançılara yeni uğurlar, yeni qələbələr arzulayıram. Sağ olun.

❖ ❖ ❖

Beyləqanlı idmançılar adından Prezident İlham Əliyevə minnətdarlığını bildirən karate üzrə dünya çempionu **Sahib NƏSİBOV** dedi:

- Möhtərəm cənab Prezident, mən də Sizi Beyləqanın gənc idmançıları adından salamlayıram, rayonumuza xoş gəlmisiniz. Siz həmişə gənclərimizə, idmançılarımıza dəstək olmusunuz. Bunun uğurlu nəticəsidir ki, Azərbaycan idmançıları beynəlxalq yarışlarda dövlətimizin bayrağını yüksək zirvələrə qaldırırlar. Artıq Azərbaycan dünyada idman ölkəsi kimi tanınır. Cənab Prezident, Sizi əmin edirəm ki, bu gözəl kompleksi bizə hədiyyə etdiyiniz üçün biz var gücümüzlə, İnşallah, Olimpiya Oyunlarında, dünya və Avropa çempionatlarında öz sözümüzü deyəcəyik. Cənab Prezident, Beyləqan idmançıları adından Sizə minnətdarlığımı bildirirəm ki, bizə belə gözəl kompleks hədiyyə etdiniz. Çox sevinirik. İnanın ki, sevincimizin həddi-hüdudu yoxdur. Allah Sizə yar olsun. Çox sağ olun, minnətdarıq.

**Prezident İlham ƏLİYEV:** Sağ olun.

❖ ❖ ❖

Yunan-Roma güləşi üzrə əməkdar məşqçi **Kamil FƏRZƏLİYEV** dedi:

- Möhtərəm cənab Prezident, Sizə minnətdarlığımızı bildiririk. Mən yunan-Roma güləşi üzrə əməkdar məşqçiyəm. Böyük bir kompleksi bizə hədiyyə etdiyiniz üçün Sizə minnətdarlığımızı bildiririk. Bu kompleksdə dünya və Avropa çempionlarımız var, əminəm ki, İnşallah, Olimpiya çempionumuz da olacaq. Sizə bir daha minnətdarlığımızı bildiririk. Allah Sizi qorusun.

**Prezident İlham ƏLİYEV:** Sağ olun. Ümid edirik ki, Olimpiya Oyunlarında yaxşı nəticələr göstəriləcək.

**Kamil FƏRZƏLİYEV:** Allahın köməyi ilə. Mən Eldənizin adını çəkmək istərdim, fəxrimizdir.

**Prezident İlham ƏLİYEV:** Bəli, gözəl idmançıdır.

**Kamil FƏRZƏLİYEV:** Nailiyyətlər qazanmış digər idmançılarımız da var. Bir daha Sizə minnətdarlığımızı bildiririk.

**Prezident İlham ƏLİYEV:** Sağ olun.

Daha sonra yunan-Roma güləşi üzrə dünya çempionu **Eldəniz ƏZİZOV** idmançılara göstərdiyi qayğıya görə dövlət başçısına minnətdarlıq etdi.

❖ ❖ ❖

Sonda xatirə şəkli çəkdirildi.

*Qeyd edək ki, kompleksin müasir standartlara cavab verən futbol meydançasında keçiriləcək yarışları tribunalardan 1900-ə qədər tamaşaçı izləyə biləcək. Burada mini-futbol meydançaları da idmançıların ixtiyarına verilib. Kompleks, həmçinin qaz, su-kanalizasiya, elektrik, rabitə xətləri ilə təchiz olunub. Həyətdə geniş abadlıq-quruculuq işləri görülüb, yaşıllıqlar salınıb, istirahət guşələri yaradılıb.*

# möhtəşəm görüşə, el bayramına çevrilir

## İlham Əliyevə ağsaqqal alqışı, ağbirçək duası:

## "Mənim balam, Azərbaycanın fəxri, Heydər oğlu, Beyləqan Sənin arxandadır... Bütün Azərbaycan gördüyün böyük işlərə görə Sənə minnətdardır"

Fevralın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev əsaslı şəkildə yenidən qurulan Beyləqan Tarix-Diyarşünaslıq Muzeyinin açılışında iştirak edib. AZƏRTAC xəbər verir ki, dövlət başçısı muzeyin rəmzi açılışını bildirən lenti kəsdi.





Yenidənqurmadan sonra muzeydə yaradılan şəraitlə tanışlıq zamanı dövlət başçısına məlumat verildi ki, bu mədəniyyət ocağı 1981-ci ildə yaradılıb. Muzeyin əvvəlki binası uzun illər istismar olunduğundan fiziki aşınmaya məruz qalmışdı. Bundan başqa, muzeyin ekspozisiyası SSRİ dövrünün tərtibatı əsasında qurulmuşdu. Ötən il yenidən inşa edilən ikimərtəbəli binanın ümumi sahəsi 1050 kvadratmetrdir. Muzeydə ekspozisiya zalı, iki xidməti otaq, bir fond otağı, 60 yerlik konfrans zalı, 12 yerlik "dəyirmi masa" zalı, bir texniki otaq var. Muzeydə həm ölkəmizin, həm də Beyləqanın tarixini əks etdirən eksponatlar toplanıb. Bu eksponatlar turistlərdə böyük maraq doğuracaq, onların ölkəmizin tarixi ilə daha yaxından tanış olmalarına hərtərəfli imkan yaradacaq.

Bildirildi ki, burada 6087 adda eksponat mövcuddur. Muzeyin fondunda və kolleksiyasında ən qədim eksponat son tunc, ilk dəmir dövrü və eramızdan əvvəl X-VII əsrlərə aiddir. Ekspozisiya zalında Beyləqanın qədim dövrdən bugünə qədər olan siyasi və ictimai tarixi, maddi-mədəniyyət nümunələri, mədəni-iqtisadi həyatı, ümummilli lider Heydər Əliyevin və Prezident İlham Əliyevin Beyləqan rayonuna səfərlərini əks etdirən fotolar və məlumatlar nümayiş etdirilir.

Şanlı tariximizin gənclərə dərindən öyrədilməsi və gələcək nəsillərə çatdırılması baxımından belə muzeylərin müstəsna əhəmiyyəti var. Bu cür muzeylər həm də Azərbaycan tarixinin zənginliyini nümayiş etdirir. Bu baxımdan son dövrlərdə Azərbaycanda yeni muzeylərin inşası, mövcudlarının isə əsaslı şəkildə yenidən qurulması işi geniş vüsət alıb. Belə layihələrin icrası ölkəmizin tarixinin müxtəlif dövrlərini araşdırmaq üçün müstəsna əhəmiyyətə malikdir.











Sonra Prezident İlham Əliyev muzeyin yerləşdiyi parkda istirahət edən rayon sakinləri ilə görüşdü.

Rayon sakinləri dövlət başçısını hərarətlə qarşıladılar.

Prezident İlham Əliyev sakinlərlə söhbət etdi.

**Sakinlər:** Cənab Prezident, Sizin gəlişiniz bizi sevindirir. Xoş gəlmisiniz. Allah Sizi qorusun.

**Prezident İlham ƏLİYEV:** Çox sağ olun.

**Yaşlı qadın sakin:** Xoş gəlmisən, mənim balam, başına dönüm. Bizdən Mehriban xanıma da çoxlu salam apar. Beyləqan torpağına xoş gəlmisən. Səndən çox-çox razıyıq. Allah o bir oğlunu min budaq eləsin. Azərbaycanın fəxri, Heydər oğlu, Beyləqan Sənin arxandadır. Beyləqan rayonu Sizinlə fəxr edir. Azərbaycanın fəxrisiniz.

**Prezident İlham ƏLİYEV:** Çox sağ olun, təşəkkür edirəm.

**Rafiq HACIYEV:** Hamıdan üzr istəyirəm, bağışlayın, oğlum Beyləqan rayonunda seçki məntəqəsinin fəal işçisidir, indi xəstədir, əməliyyat olunmalıdır.

**Prezident İlham ƏLİYEV:** Mən kömək edərəm, ad-familiyasını yazın.

**Rafiq HACIYEV:** Allah razı olsun. Hacıyev Tural Rafiq oğlu.

**Sakin:** O gün olsun ki, tezliklə biz Dağlıq Qarabağda belə bir yığıncaq keçirək. Allah Sizi qorusun.

**Prezident İlham ƏLİYEV:** Çox sağ olun. Mən Beyləqana altıncı dəfədir ki, gəlirəm və hər bir səfərdə gözəl açılışlar, gözəl tədbirlər olur. Bu gün də belədir. Misal üçün bu gün böyük idman mərkəzinin açılışını etdik. Burada idmanla məşğul olmaq üçün gözəl şərait yaradılıb. Yeni yarımstansiya işə düşür, yeni yolun açılışını etdik. Beyləqan rayonunun ümumi inkişafı ilə bağlı ardıcıl tədbirlər görülür. Qazlaşdırma bir müddətdən sonra 100 faizə çatacaq, indi 97 faizdir. Şəhərin içməli su layihəsi icra olunub.

**Yaşlı qadın sakin:** Çox sağ ol, ay mənim əziz balam. Səni bizə bəxş edən o kişiyə Allah rəhmət eləsin. Azərbaycanın gözəl oğlu, siyasətdə ən öndə duran balamız. Çox sağ ol. Sənin gəlişinə bütün nənələr qurban. Hər bir qüvvətli kişinin arxasında bir cəngavər qadın durur. Allah səni də, sənin arxanda dayanan Mehriban xanımı da qorusun. Hər ikinizə uğurlar arzulayıram.

**Prezident İlham ƏLİYEV:** Çox sağ olun. Mən Sizi ürəkdən salamlayıram və Sizə xidmət etməyə gəlmişəm.

**Sakinlər:** Sağ olun. Abad yollarımız, qazımız, işığımız var, cənab Prezident. Allah Sizi də, Mehriban xanımı da qorusun. Beyləqan qadınları adından minnətdarlığımızı bildiririk.

**Prezident İlham ƏLİYEV:** Sağ olun, soruşmaq istəyirəm, Beyləqan rayonunun inkişafı, vətəndaşların rifahını yaxşılaşdırmaq üçün əlavə nə lazımdır?

**Kişi sakin:** Dünyamalılar kəndində yeni məktəbin tikilməsinə ehtiyac var, cənab Prezident.

**Prezident İlham ƏLİYEV:** Bu il onu da həll edəcəyik. Məktəb tikiləcək. Mən artıq bunu dedim, bir daha demək istəyirəm, Dünyamalılar kəndində yeni məktəb tikiləcək, çünki həmin məktəbin vəziyyəti o qədər də yaxşı deyil. Yataqxanalarda yaşayan vətəndaşlar üçün 36 mənzilli yeni bina tikiləcək. Növbəti mərhələdə yeni kənd yolları da salınacaq.

**Sakinlər:** İnşallah, çox sağ olun. Allah Sizdən razı olsun. Qazımız, işığımız, suyumuz, yolumuz var, cənab Prezident.

**Prezident İlham ƏLİYEV:** Beyləqanda 3 aqropark fəaliyyət göstərir və orada məhsuldarlıq yaxşıdır, pambıqçılığın ənənələri bərpa olunur. Ulu öndərin vaxtında burada çox bol pambıq yığılırdı, yavaş-yavaş o hədəfə yaxınlaşırıq.

**Kişi sakin:** Cənab Prezident, o vaxt Beyləqan 100 min tona yaxınlaşmışdı. Əlli min ton üzüm, 87 min ton pambıq Beyləqanın axırıncı göstəricisi idi.

**Prezident İlham ƏLİYEV:** Keçən il təqribən 22 min ton pambıq tədarük edilmişdir. Ancaq əlbəttə ki, biz o səviyyəyə çatmamışıq, tədricən buna da, İnşallah, çatarıq. Məşğulluqla bağlı da göstəriş vermişəm, yüzlərlə yeni ödənişli ictimai iş açılsın ki, hələlik iş tapa bilməyən vətəndaşlar ictimai işlərlə məşğul olsunlar.

**Kişi sakin:** Cənab Prezident, çox sağ olun. Siz minimum əməkhaqqını 130 manatdan 180 manata qaldırdınız. Pensiyamızı qaldırdınız. Həmçinin qaçqın və məcburi köçkünlərin, hərbçilərin mənzil-məişət şəraitləri yaxşılaşdırıldı. Kənd ilə şəhər arasında fərq aradan qalxır. Bu gün bütün Azərbaycan gördüyünüz böyük işlərə görə Sizə minnətdardır. Cənab Prezident, mən gənc ailəyəm, özüm Beyləqan Rayon Mədəniyyət Mərkəzində işləyirəm, müğənniyəm. Artıma görə ailəmiz çox şad oldu. Çox sağ olun, Allah Sizə ömür versin.

El bilir ki, tükənməyən sərvətin vardır,
Sinən üstü ağ pambıqlı gen tarlalardır,
Buruqların göy Xəzərdə qatar-qatardır,
Yurdum, yuvam məskənimsən Azərbaycanım,
Anam doğma Vətənimsən Azərbaycanım.

**Kişi sakin:** Vətəndaşlarla bir yerdə olmağınız, onlara arxalanmağınız, onlarla təmasda olmağınız, özünüzün dediyiniz kimi, onların arzu və təkliflərinə, istəklərinə vaxtında cavab verməyiniz bizi sevindirir. Siz həmişə verdiyiniz sözə əməl edirsiniz. Allah Sizi qorusun.

**Prezident İlham ƏLİYEV:** Mən verdiyim sözlərə həmişə əməl etmişəm.

**Qadın sakin:** Siz xalqın arxasındasınız, xalq Sizin arxanızdadır. Nənələr, analar gecə-gündüz dua edirlər ki, qara qüvvələr Sizdən uzaq olsun.

**Prezident İlham ƏLİYEV:** Mən həmişə bu dəstəyə arxalanmışam, mənə güc verən Sizin mənə olan inamınızdır.

**Kişi sakin:** Yaxın vaxtlarda bayrağımız Xankəndidə dalğalansın. Amin.

**Prezident İlham ƏLİYEV:** İnşallah!

**Qadın sakin:** Cənab Prezident, imkanım yoxdur, evim uçub, mənə kömək edin.

**Prezident İlham ƏLİYEV:** Ev niyə uçub? Bu, bina evidir, yoxsa...?

**Qadın sakin:** Köhnə hökumət evidir, 35-37-ci illərdə tikilib. Başına dönüm, Allah köməyin olsun, Allah canını sağ eləsin. Allah Sizi başımızın üstündən əskik etməsin.

**Prezident İlham ƏLİYEV:** Biz onu həll edəcəyik, 36 mənzilli ev tikiləcək, bu gün sərəncam imzalanacaq, oradan sizə də ev veriləcək. İcra başçısına da tapşırıram ki, nəzarət etsin.

**Qadın sakin:** Çox sağ ol, cənab Prezident.

❖ ❖ ❖

Sonra Prezident İlham Əliyev parkda yaradılan şəraitlə tanış oldu.

# Prezidentin vətəndaşlarla hər ünsiyyəti möhtəşəm görüşə, el bayramına çevrilir

## Ali Baş Komandan əsgər süfrəsində

*Əvvəli 1-ci səh.*

Hazırda ikinci mərhələ üzrə işlər davam etdirilir. Hərbi şəhərcikdə inzibati, xidməti, yaşayış, texniki binalar inşa olunub, qurğular yerləşdirilib. Ərazidə şəxsi heyətin uzunmüddətli yerləşdirilməsi məqsədilə yataq, məişət və xidməti sahələrdən ibarət əsgər yataqxanaları tikilib. Ailəli hərbi qulluqçuların yerləşdirilməsi üçün birmərtəbəli dörd xidməti yaşayış binasında 32-si üçotaqlı, 16-sı ikiotaqlı olmaqla, 48 mənzilin tikintisi davam etdirilir. Təntənəli mərasimlər, qoşunların sıra təlimləri, düzülüşlər, şəxsi heyətin sıra baxışı, döyüş və fiziki hazırlıq, eləcə də digər tədbirlərin keçirilməsi üçün sıra meydanı da salınıb.









Prezident, Ali Baş Komandan İlham Əliyev burada silahlanmaya yeni qəbul edilən hərbi texnika ilə tanış oldu. Yaylım atəşli reaktiv sistem SMERÇ kompleksi reaktiv mərmilər atmaqla nüvə hücum vasitələrinə, cəmləşmə rayonlarında, marşda və döyüş düzülüşündə tank, motoatıcı, artilleriya və raket bölmələrinə, enmə meydançalarında helikopter bölmələrinə, mövqelərdə raket və hava hücumundan müdafiə bölmələrinə, idarəetmə məntəqələrinə tələfat vermək üçün təyin olunub. 122 millimetrlik yaylım atəşli reaktiv sistem BM-21 cəmləşmə rayonlarında düşmənin canlı qüvvəsini və döyüş texnikasını, atəş mövqeyində artilleriya və minaatan batareyalarını məhv etmək və susdurmaq, düşmənin istehkam, dayaq məntəqəsi və müqavimət mərkəzlərini dağıtmaq üçün təyin edilib. 220 millimetrlik TOS-1A ağır odatan sistemi T-90 tankının şassisi üzərində quraşdırılan reaktiv qurğudur. O, idarə olunmayan reaktiv mərmilərin daşınması, saxlanması, hədəfə tuşlanması və düşmənin tağım dayaq məntəqəsi tipli ərazi hədəflərini, həmlə edən bölük, artilleriya və minaatan batareyalarının atəş mövqelərini, marşda olan avtomobil kalonlarının məhv edilməsi üçün təyin olunub. 152 millimetrlik 2A36 topu düşmənin taktiki raket vasitələrini, uzaqvuran artilleriya bölmələrini məhv etmək və susdurmaq, düşmənin canlı qüvvəsini, atəş vasitələrini, marş zamanı döyüş texnikalarını, cəmləşmə rayonlarını, müdafiə məntəqələrini məhv etmək və susdurmaq, düşmənin arxa cəbhəsini və idarəetmə məntəqələrini tələfata uğratmaq üçün təyin edilib. 130 millimetrlik M46 topu düşmənin artilleriyasını, minaatanlarını, cəmləşmə rayonlarında yerləşən texnikasını və canlı qüvvəsini, arxa xidmət məntəqələrini və ordunun idarəetmə bölmələrini məhv etmək, səhra və uzunmüddətli müdafiə qurğularını dağıtmaq üçün təyin olunub. 120 millimetrlik "Nizə" minaatanı düşmənin yüksəkliklərdə, yamaclarda, təpələrin arxasında yerləşən canlı qüvvəsini, döyüş texnikasını məhv etmək və motoatıcı bölmələrin atəş dəstəyini təmin etmək üçün nəzərdə tutulub. Bu kompleks lazertuşlayıcı və avtomatik idarəetmə sistemi ilə yüksək dəqiqliklə qısa zamanda hədəfləri məhv etməyə qadirdir. "Nizə" döyüş maşını yolsuzluq şəraitində yüksək manevr imkanlarına malik olub, heyətin qorunmasını və təhlükəsizliyini təmin edir. Tank əleyhinə idarə olunan raket kompleksi "Xrizantema-S" sutkanın istənilən vaxtında, hava şəraitindən asılı olmayaraq, hərəkət edən və etməyən yerüstü və hava hədəflərini məhv etmək üçün nəzərdə tutulub. Tank əleyhinə raket kompleksi "SPİKE-LR" düşmənin 200 metrdən 4 min metrədək məsafədə hərəkət edən və hərəkətsiz tank və zirehli texnikalarını, canlı qüvvələrini məhv etmək üçün təyin olunub. Kompleks yüngül çöl müdafiə qurğularına, binalara, alçaqdan uçan helikopterlərə də dəqiq atəş açmaq imkanı yaradır. Həmçinin kompleksdən kəşfiyyat xarakterli əməliyyatlarda da istifadə etmək mümkündür. "SPİKE-ER" qurğusu isə döyüş maşını üzərində quraşdırılan, müxtəlif relyef şəraitinə uyğunlaşan, 400 metrdən 8 min metrədək, gündüz, gecə və məhdud görmə şəraitlərində düşmən tanklarını, PDM, zirehli texnikalarını, aşağı yüksəklikdə uçan hava hədəflərini məhv etmək üçün raket buraxıcı sistemdir. "Orbiter-2B" pilotsuz uçuş aparatı döyüş əməliyyatlarında tətbiq etmək, hava kəşfiyyatını aparmaq, eləcə də istənilən şəraitdə hədəfgöstərmə və artilleriya atəşinə xidmət etmək üçün təyin olunub. Universal radiolokasiya kompleksi düşmənin atəş açan taktiki raketlərinin, reaktiv qurğularının, haubitsaları və minaatanlarının kəşfiyyatını aparmağa və öz artilleriya bölmələrimizin atışına xidmət etmək üçün təyin edilib. "R-010SC" komanda-qərargah maşını əməliyyat idarəetmə səviyyələrində tətbiq olunmaqla hərəkətdə və dayanacaqda qərargah zabitlərinin idarəetməsini təmin etmək üçün nəzərdə tutulub. "R-010SC" radioidarəetmə məntəqəsi isə analoq və rəqəmsal açıq, məxfi, sinxron tezlik dəyişən, həmçinin bütün növ məlumatların kompüter vasitəsilə ötürülməsi və qəbulu üçün nəzərdə tutulub.

Şəxsi heyətə ixtisaslı tibbi yardımın göstərilməsi məqsədilə ərazidə xüsusi tibbi avadanlıqla təchiz edilmiş tibb məntəqəsi, qarovul məntəqəsi, yemək zalından, yeməkbişirmə, ərzaq və təsərrüfat otaqlarından, ərzaq və soyuducu anbarlardan ibarət yeməkxana binası inşa olunub. Ərazidə gündəlik 720 kiloqram paltar yumaq, qurutmaq və ütüləmək imkanına malik hamamxana-camaşırxana-qazanxana kompleksi yaradılıb. Hərbi hissədə avtomobil və xüsusi texnikanın yerləşdirilməsi üçün park da salınıb.

Prezident İlham Əliyev daha sonra yeməkxanada yaradılan şəraitlə maraqlandı, hərbi hissənin şəxsi heyəti ilə birlikdə nahar etdi.

Bütün bunlar göstərir ki, orduda aparılan islahatlar öz bəhrəsini verir. Döyüş hazırlığının yüksək tələblərə cavab verən səviyyəyə çatdırılmasını prioritet vəzifə kimi müəyyənləşdirən Prezident İlham Əliyev təmas xəttində yerləşən bölgələrimizə mütəmadi səfərlər edir. Ali Baş Komandanın əsgərlərimizlə keçirdiyi görüşlər onları vətəni qorumağa, işğal altındakı torpaqlarımız uğrunda hər an savaşa qalxmağa ruhlandırır. Bununla da güclü ordu potensialımız bizi əsas məqsədimizə, işğal edilən torpaqlarımızın azad olunmasına daha da yaxınlaşdırır. Bunun nəticəsidir ki, qəhrəman hərbçilərimizin uğurlu əkshücum əməliyyatı nəticəsində Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğal altındakı ərazilərinin 2 min hektardan çox hissəsi 2016-cı ildə azad olunub. Füzuli rayonu istiqamətində yerləşən və geniş ərazini nəzarətdə saxlamağa imkan verən strateji əhəmiyyətli Lələtəpə yüksəkliyi ələ keçirilib. Naxçıvan Muxtar Respublikası Şərur rayonunun Ermənistan silahlı birləşmələrinin işğalı altında olan Günnüt kəndinin 26 ildən sonra ordumuzun nəzarəti altına keçməsi nəticəsində Xunut dağı və Ağbulaq yüksəkliyi, Qızılqaya dağı və Mehridağ işğaldan azad edilib, ümumilikdə 11 min hektara yaxın ərazi nəzarət altına alınıb. Bu da göstərir ki, peşəkar ordusu olan xalqın müstəqilliyi əbədidir və bu ordunun gücünün əsasında xalqına, dövlətinə sədaqət və vətən sevgisi durur.

# Bölgələrdə energetika infrastrukturu modernləşdirilir





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 13-də Beyləqan rayonunda yenidən qurulan 110/35/10 kV-luq "Beyləqan-1" yarımstansiyasının açılışında iştirak edib.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə son illərdə elektroenergetika sahəsində mühüm işlər görülüb, bu sektorda mövcud çatışmazlıqların aradan qaldırılması, yeni yarımstansiyaların tikintisi diqqət mərkəzində saxlanılıb. Bu sırada Beyləqan rayonunda energetika sisteminin yenidən qurulması, əhalinin fasiləsiz elektrik enerjisi ilə təchiz edilməsi prioritet məsələlərdən olub. İntensiv tikinti, yenidənqurma və bərpa işləri nəticəsində rayonun kəndlərinin və ətraf ərazilərin elektrik təchizatının yaxşılaşdırılması, həmçinin kənd təsərrüfatı obyektlərinin elektrik enerjisinə artan tələbatının ödənilməsi üçün geniş imkanlar yaranıb. Bu illərdə rayonda xeyli hava xətləri çəkilib, kəndlərin elektrik şəbəkəsi özünüdaşıyan izolyasiyalı naqillərlə əvəzlənib. Hazırda bu işlər digər kəndlərdə davam etdirilir. Bununla mövcud elektrik şəbəkəsinin qoyuluş gücü artıb, texniki itkilər kəskin şəkildə azalıb.



Prezident İlham Əliyev yarımstansiyanı işə saldı.

"Azərişıq" ASC-nin sədri səlahiyyətlərini icra edən Vüqar Əhmədov dövlət başçısına məlumat verdi ki, Beyləqan Elektrik Şəbəkəsində 22 min 480 abonent mövcuddur. Onlardan 20 min 728-i əhali, 1752-si qeyri-əhali kateqoriyasına aiddir. Rayonun elektrik enerjisi ilə təminatının və etibarlılığın artırılması məqsədilə istismarda olan avadanlığın texniki parametrlərini itirmiş və dispetçer əməliyyat çevrilmələrinin aparılması mümkün olmayan mövcud 110/35/10 kV-luq "Beyləqan-1" yarımstansiyası tam yenidən qurulub, hər biri 25 MVA gücünə malik iki transformator quraşdırılaraq 15 MVA yeni güc yaradılıb. Yarımstansiyada 35 kV-luq hava xəttinin tikintisi və şəbəkə ilə əlaqələndirilməsi, Beyləqan və Ağcabədi rayonlarının 35 kV-luq dairəvi elektrik təchizat sxemlərinin yaradılması bu rayonlarda elektrik enerjisinin dayanıqlılığına və etibarlılığına, 110 kV-luq üç qovşaq yarımstansiyasının əlaqələndirilməsinə, eyni zamanda, yüklərin bir mənbədən digər mənbə üzərinə keçirilməsinə xidmət edəcək. Yenidən qurulmuş yarımstansiya vasitəsilə Beyləqan şəhərində, Mayak və Yuxarı Aran qəsəbələrində yaşayan 28 min nəfər əhalinin, eyni zamanda, şəhərdəki ictimai, sosial-mədəni, idman, səhiyyə obyektlərinin elektrik enerjisi ilə təchizatı həyata keçirilir. Həmçinin rayon ərazisində olan əkinçilik, pambıqçılıq və digər təsərrüfatların enerji təminatı tam ödəniləcək.

Bildirildi ki, "Beyləqan-1" yarımstansiyasında müasir tipli idarəetmə mərkəzi, 35/10 kv-luq qapalı paylayıcı qurğular məsafədən dispetçer idarəetmə sisteminə (SCADA) qoşulub. Yarımstansiyanın inzibati binasında işçilər üçün iş otaqları, yardımçı və texniki otaqlar yaradılıb, ərazi abadlaşdırılıb, yaşıllıqlar salınıb.

## Beyləqan şəhərində abadlıq-quruculuq işlərinin davam etdirilməsi və əhalinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı dövlət proqramlarının icrası nəticəsində Beyləqanda mühüm tədbirlər həyata keçirilmiş, Olimpiya İdman Kompleksi, Gənclər Mərkəzi, Şahmat Məktəbi, Bayraq Muzeyi, Tarix-Diyarşünaslıq Muzeyi, Bayraq Meydanı, əlil və şəhid ailələri üçün ümumilikdə 78 mənzilli 2 yaşayış binası inşa edilmiş, Mərkəzi Rayon Xəstəxanasının, Mədəniyyət Sarayının binaları və 3000 yerlik Mərkəzi Stadion əsaslı təmir olunmuş, 16 ümumtəhsil məktəbi istifadəyə verilmişdir. Bundan başqa, Beyləqan şəhərinin içməli su təchizatı sistemi yenidən qurulmuş, 2x25 MVA-lıq "Beyləqan-1" elektrik yarımstansiyası istismara verilmiş, yol-nəqliyyat infrastrukturu yaxşılaşdırılmış, iri istehsal və emal müəssisələri yaradılmış, 14 mindən çox yeni iş yeri açılmış, genişmiqyaslı abadlıq-quruculuq işləri görülmüşdür.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq Beyləqanda abadlıq-quruculuq işlərinin davam etdirilməsi və istismar müddəti başa çatmış ikimərtəbəli 8 mənzilli binada və 1970-ci illərdə inşa edilmiş köhnə yataqxana binasında yaşayan sakinlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə **qərara alıram:**

1. Beyləqan şəhərində istismar müddəti başa çatmış çoxmənzilli binaların sakinlərinin mənzil-məişət şəraitini yaxşılaşdırmaq və abadlıq-quruculuq işlərini davam etdirmək məqsədilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Beyləqan Rayon İcra Hakimiyyətinə 3,0 (üç) milyon manat, o cümlədən istismar müddəti başa çatmış çoxmənzilli binaların sakinlərinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması üçün 36 mənzilli yaşayış binasının tikintisinə görə 2,0 (iki) milyon manat, abadlıq-quruculuq işlərinin davam etdirilməsinə görə 1,0 (bir) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 fevral 2019-cu il*

## Beyləqan rayonunun Dünyamalılar kəndində yeni ümumtəhsil məktəbi binasının tikintisi ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Beyləqan rayonunun Dünyamalılar kəndində 624 şagird yerlik yeni ümumtəhsil məktəbi binasının tikintisi üçün Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Respublikasının Təhsil Nazirliyinə ilkin olaraq 2,0 (iki) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə bu sərəncamın 1-ci hissəsində göstərilən ümumtəhsil məktəbi binasının tikintisinin başa çatdırılması üçün zəruri olan maliyyə vəsaitini nəzərdə tutsun.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 fevral 2019-cu il*

# Yeni Azərbaycan Partiyasının qərargahında qeyri-hökumət təşkilatlarının nümayəndələri ilə görüş keçirilib



Yeni Azərbaycan Partiyasının qərargahında qeyri-hökumət təşkilatlarının nümayəndələri ilə görüş keçirilib.

Tədbirdə Yeni Azərbaycan Partiyasının sədr müavini - icra katibi Əli Əhmədov, YAP icra katibinin müavinləri - Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı, Milli Məclisin Sədr müavini, İnsan hüquqları komitəsinin sədri Bahar Muradova, QHT-lərə Dövlət Dəstəyi Şurasının sədri Azay Quliyev və QHT təmsilçiləri iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, tədbirdə sosial mediada təhqirlərin və digər bu kimi xoşagəlməz halların qarşısının alınması yollarının tapılması istiqamətində müzakirələr aparılıb.

QHT-lərə Dövlət Dəstəyi Şurasının sədri Azay Quliyev çıxış edərək bildirib ki, sosial şəbəkələr vasitəsilə milli-mənəvi dəyərlərimiz mənəvi terrora məruz qalır: "Sosial şəbəkələrdə dövlət, hakimiyyət orqanlarını gözdən salmağa çalışırlar. Bunu düşünülmüş siyasi məqsədlərlə edirlər. Sosial şəbəkələrdə söyüş adi hala çevrilib. Müzakirələr aparmalıyıq və elə bir yol tapmalıyıq ki, insanlar söyüşə məruz qalmasın".

Digər çıxışçılar da sosial şəbəkənin yaratdığı mənfi təzahürlərdən danışıb və bu istiqamətdə maarifləndirmə işinin gücləndirilməsinin vacibliyini vurğulayıblar.

# Altay Əmir oğlu HACIYEV



Azərbaycan incəsənətinə ağır itki üz vermişdir. Müasir Azərbaycan təsviri sənətinin tanınmış nümayəndəsi, xalq rəssamı, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü Altay Hacıyev 2019-cu il fevral ayının 12-də ömrünün 88-ci ilində vəfat etmişdir.

Altay Əmir oğlu Hacıyev 1931-ci il aprelin 2-də Bakı şəhərində anadan olmuşdur. O, 1951-ci ildə Əzim Əzimzadə adına Azərbaycan dövlət rəssamlıq məktəbini bitirdikdən sonra bir müddət respublika nəşriyyatlarında kitabların bədii tərtibatı üzrə rəssam işləmiş, 1954-1959-cu illərdə isə Kiyev Dövlət Rəssamlıq İnstitutunun qrafika fakültəsində təhsil almışdır.

1959-cu ildən etibarən beynəlxalq və respublika əhəmiyyətli sərgilərin iştirakçısı olan Altay Hacıyev 1960-cı ildə SSRİ Rəssamlar İttifaqının üzvlüyünə qəbul edilmişdir. O, 1962-1967-ci illərdə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Mətbuat Komitəsinin baş rəssamı vəzifəsində çalışmışdır.

Altay Hacıyev dəzgah və kitab qrafikası rəssamı kimi Azərbaycan rəngkarlığının inkişafında səmərəli xidmətlər göstərmiş və milli təsviri sənətin inkişafına töhfələr vermiş sənətkarlardandır. Müxtəlif janr və mövzularda çoxsaylı əsərləri ilə geniş şöhrət qazanmış rəssamın fırçasının məhsulu olan tablolar həmişə özünün yaddaqalan kompozisiya həlli, işlənmə üslubu və rəng zənginliyi ilə səciyyələnmişdir. Tarixi-mədəni irsə və milli dəyərlərə ehtiram sənətkarın yaradıcılığının leytmotivini təşkil etmişdir.

Dünya rəssamlıq ənənələrini lazımınca mənimsəmiş Altay Hacıyev uzun illər kitab qrafikası, tərtibatı və illüstrasiyası sahəsində uğurla fəaliyyət göstərmişdir. Kitablara çəkdiyi rəngli illüstrasiyalar sənət nümunələri olaraq rəssamın Azərbaycanın zəngin xalq yaradıcılığı xəzinəsinə dərin bələdliyini özündə təcəssüm etdirir. Onun yaratdığı silsilə lövhələrdə insan əməyinin əzəməti, zəhmətə inamın təntənəsi və gələcəyə ümid rənglərin ən incə çalarlarında ifadəsini tapmışdır.

Altay Hacıyev Azərbaycan xalqının yetirdiyi görkəmli şəxsiyyətlərin unudulmaz obrazlarını məhz qədim miniatür sənətimizə, ədəbi-mədəni fikir tariximizə və çoxəsrlik ənənələrimizə bağlılığı sayəsində tam dolğunluğu ilə canlandırmağa müvəffəq olmuşdur. Bu əsərlər böyük bədii-estetik təsir qüvvəsinə malik olub, vətənə məhəbbət duyğusu təlqin edir və gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsində əhəmiyyətli rol oynayır.

Altay Hacıyevin ölkəmizin hüdudlarından uzaqlarda da sənətsevərlər tərəfindən rəğbətlə qarşılanmış qrafika əsərlərinin mühüm bir qismi xarici ölkələrdəki mötəbər muzey və qalereyalarda nümayiş etdirilir, nüfuzlu şəxsi kolleksiyalarda saxlanılır.

Altay Hacıyevin yaradıcılığı yüksək qiymətləndirilmişdir. O, 1982-ci ildə əməkdar rəssam, 2002-ci ildə xalq rəssamı fəxri adlarına layiq görülmüşdür. Altay Hacıyev 2004-cü ildən Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü idi.

Tanınmış rəssam, səmimi insan Altay Əmir oğlu Hacıyevin işıqlı xatirəsi onu tanıyanların qəlbində daim yaşayacaqdır.

Allah rəhmət eləsin!

***İlham Əliyev, Mehriban Əliyeva, Novruz Məmmədov, Oqtay Əsədov, Ramiz Mehdiyev, Əli Əhmədov, Eldar Əzizov, Fərəh Əliyeva, Əbülfəs Qarayev, Tahir Salahov, Fərhad Xəlilov, Ömər Eldarov, Cəmil Müfidzadə, Arif Hüseynov***

# Sosial şəbəkələr təhqir və böhtan vasitəsinə çevrilməməlidir

XX əsrin sonlarında meydana çıxan yeni informasiya texnologiyaları hər bir ölkədə cəmiyyətin inkişafına təsir göstərən əsas amillərdən birinə çevrilib. Xüsusən dövlət sərhədlərini tanımayan, coğrafi uzaqlıqdan asılı olmayaraq operativ informasiya mübadiləsini təmin edən internetin ortaya çıxardığı yeniliklər dünyanın hər yerində insanların məişətinə daxil oldu, gündəlk həyatımızın bir hissəsini təşkil etməyə başladı.



## Azərbaycan internetin inkişafına xüsusi diqqət yetirir

Bu mənada müasir dünyanı İKT-nin bəxş etdiyi yeniliklərsiz təsəvvür etmək qeyri-mümkündür. Ən mühüm yenilik isə informasiya cəmiyyətinin meydana çıxması oldu. İnformasiya cəmiyyətinin mənası insanların informasiya tələbatını ödəmək, onların arasında sosial kommunikasiya mühiti yaratmaq, istədikləri məlumatları ictimaiyyətə çatdırmaqda kömək etməkdən ibarətdir. Əsas məqsəd informasiya bolluğunun yaradılması və bu prosesin köməyi ilə, həm də cəmiyyətin inkişafına xidmət etməkdir. Yəni, informasiya cəmiyyəti elə bir cəmiyyətdir ki, burada əhalinin böyük hissəsi müasir informasiya texnologiyalarından istifadə etməklə informasiyanın istehsalı, saxlanması və ötürülməsi ilə məşğul olur.

Bütün sivil dövlətlərdə informasiya kommunikasiyalarının təsir dairəsi genişlənərək dövlət strukturlarını, vətəndaş cəmiyyəti institutlarını, elm və təhsili, mədəniyyəti, bütövlükdə cəmiyyəti əhatə edir. Elə buna görə də informasiya texnologiyalarının daha geniş yayıldığı cəmiyyətlər dünyanın qabaqcıl cəmiyyətləri sayılır.

Bu sırada rahat və əlverişli ünsiyyət vasitəsi kimi yaranan sosial şəbəkələr daha sürətlə populyarlaşmağa başladı. İndi yalnız fərdi insanlar deyil, dövlət orqanları da öz fəaliyyətlərində sosial şəbəkələrin yaratdığı imkanlardan istifadə edirlər. Eyni zamanda internet mediasının sosial şəbəkələr vasitəsilə genişlənməsi də müasir internetin yaratdığı yeni imkanlardan biridir. Kütləvi-informasiya vasitələri sosial şəbəkələr üzərindən öz xəbərlərini rahatlıqla yaya bilirlər.

Azərbaycan sivil dünyanın tamhüquqlu üzvü kimi internet şəbəkəsinin inkişafına xüsusi diqqət yetirir. Xüsusilə son illərin internetlə bağlı statistikası göstərir ki, respublikada həyata keçirilən tədbirlər internet xidmətlərinin yüksəlməsinə və internet istifadəçilərinin sayının sürətlə çoxalmasına gətirib çıxarıb. İnternetin inkişafı isə informasiya cəmiyyətinin, xüsusilə sosial medianın inkişafı, o cümlədən sosial şəbəkələrdən istifadənin genişlənməsi deməkdir. Azərbaycanda da sosial şəbəkələrin yaratdığı informasiya mübadiləsi imkanlarından bütün sahələrdə səmərəli istifadə olunur.

## Bəziləri bundan təhqir və böhtan üçün istifadə edir

Hər bir insan, istər siyasətçi, istər musiqiçi, istərsə də digər sahələr üzrə çalışan insanlar öz peşələrinə uyğun olaraq sosial şəbəkələrdən istifadə etməlidir, təbii ki, etik normalar çərçivəsində. Mən özüm deputatlıq fəaliyyətimlə yanaşı uzun illərdən bəri musiqi sahəsində çalışan insan kimi ərsəyə gətirdiyim musiqi əsərlərini, ictimaiyyətə əsasən internet şəbəkəsi vasitəsilə təqdim edirəm. Bu musiqilərin əsas xəttini vətənpərvərlik, dövlətin əldə etdiyi uğurlar təşkil edir. "Azərbaycan bayrağı", "Sən oldun", "Öndər Fondu", "Qoruyaq uşaqları", "Azərbaycan-Türkiyə" və sair mahnıları buna misal çəkə bilərəm.

Lakin informasiya cəmiyyətinin xarakterik xüsusiyyətləri və bütün müsbət məqamları ilə yanaşı təhlükəli meyilləri də var. Bu sırada sosial şəbəkələr bəzən cəmiyyətin rifahına deyil, zərərli informasiyaların yayılmasına, insanların şəxsi həyatına mənfi təsir etməsinə səbəb olur. Eyni zamanda hazırkı informasiya bolluğunda bəzi hallarda daha dəqiq və keyfiyyətli informasiyanın seçim çətinliyi yaranır. Bu baxımdan sosial şəbəkələr heç də informasiya cəmiyyətinin ali məqsədlərinə xidmət etmir.

Son dövrlər ölkəmizdə də bəziləri tərəfindən sosial şəbəkələrin üstünlüklərindən sui-istifadə edildiyini görürük. Beləleri öz sosial şəbəkə hesablarından dövlətə, hakimiyyət orqanlarına qarşı böhtan atmaqla məşğuldurlar. Təəssüf ki, bunların arasında təhqirlərə də yol verilməsi cəmiyyət tərəfindən narahatlıqla qarşılanır, haqlı olaraq insanların narazılığına səbəb olur.

Azərbaycan demokratik dövlətdir. Müstəqillik əldə etdikdən sonra respublikamızda demokratik inkişaf istiqamətində mühüm addımlar atılıb, söz, vicdan, sərbəst toplaşmaq azadlığı təmin olunub. Bu gün cəmiyyətimizdə demokratiyanın bütün dəyərləri tam təsbit olunub. İnsan hüquqlarının təmin edilməsi, söz və mətbuat azadlığı müasir Azərbaycanın ən böyük uğurları sırasında yer alır.

Demokratik cəmiyyətin ən mühüm göstəricilərindən biri də müxalifətçilikdir. Azərbaycanda xeyli sayda müxalifət partiyaları fəaliyyət göstərir, onların bir qisminin nümayəndələri Milli Məclisdə təmsil olunurlar. Müxalifətçilik də sivil şəkildə olmalı, böhtan və təhqir üzərində qurulmalı deyil. Ən azından vaxtilə ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə müxalifət partiyası kimi yaranan Yeni Azərbaycan Partiyasının fəaliyyəti nümunə olmalıdır.

Son vaxtlar ölkəmizdə özünü müxalifət hesab edən bəzi partiyaların tərəfdarları konstitusion normaların ziddinə gedərək sosial şəbəkələr üzərindən dövlət və hakimiyyət əleyhinə siyasi çağırışlar edirlər. Əlbəttə, hər bir sosial şəbəkə istifadəçisi rastlaşdığı çatışmazlığı tənqid edə, üzləşdiyi neqativ haldan şikayətlənə bilər. Amma rastlaşdığımız odur ki, bəziləri müxalifətçiliyi təhqir və böhtanda, dövlət və hakimiyyət əleyhinə çağırış etməkdə görür. Bu adamlar dövlətimizin uğurlarına sevinmək əvəzinə görülən işlərə qara yaxmaqla məşğul olur, cəmiyyətdə yanlış rəy yaratmağa cəhd göstərirlər. Elədikləri əməllər həm də mənəvi terrora cəhddir.

Erməni lobbisinin, onların təsiri altında olan riyakar siyasətçilərin, dövlətimizin uğurlarından qıcıqlanan antiazərbaycançı mərkəzlərin və islamofob dairələrin ölkəmizə qarşı apardıqları qərəzli informasiya müharibəsi son illər daha da intensivləşib. Bu gün sosial şəbəkələrdə təhqiri, söyüşü mübarizə metodu seçənlər, insanları dağıdıcılığa çağıranlar, şaiyə və dezinformasiya yayanlar eyni zamanda həmin antiazərbaycançı mərkəzlərin buyruqlarını yerinə yetirirlər.

Siyasi mübarizədə təhqirə yol vermək və böhtan atmaq insan mənəviyyatsızlığının son həddidir. Təhqir etmək həm də sivil qaydada mübarizə apara bilməməyin, zəifliyin göstəricisidir. Bu hərəkətlərə yol verənlər cəmiyyət üçün heç bir müsbət nümunə göstərə bilməzlər.

## Yeni hüquqi mübarizə mexanizmləri tətbiq olunmalıdır

Bəli, internetin, sosial şəbəkələrin inkişafı, geniş yayılması və texniki imkanları ondan təhqir etmək və böhtan atmaq üçün istifadə edilməsini də reallığa çevirib. Bununla yanaşı artıq dünyanın bir çox yerlərində məhz sosial şəbəkələr vasitəsilə insan ləyaqətinin alçaldılmasına görə hüquqi müstəvidə qiymət verilməsinin mexanizmləri gücləndirilib. Bir çox ölkələrdə böhtan və təhqirə görə, sosial şəbəkələr nəzarətə götürülərək ciddi tədbirlər görülür.

Azərbaycanda bu sahədə son illərdə müəyyən addımlar atılıb. Belə ki, Azərbaycan Cinayət Məcəlləsinin 147-ci maddəsinə əsasən böhtan atmağa görə müvafiq məsuliyyət nəzərdə tutulur. Məcəllənin 148-ci maddəsi isə təhqir etmə ilə bağlıdır. 148-1-ci maddədə göstərilir ki, internet informasiya ehtiyatında saxta istifadəçi adlar, profil və ya hesablardan istifadə edərək kütləvi nümayiş etdirməklə böhtan atma və ya təhqir etmə min manatdan iki min manatadək miqdarda cərimə və ya üç yüz altmış saatdan dörd yüz səksən saatadək müddətə ictimai işlər və ya iki ilədək müddətə islah işləri və ya bir ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

Lakin hesab edirəm ki, bütün bunlar yetərli sayıla bilməz. Çünki bir sıra hallarda təhqir və böhtanların yayıldığı sosial şəbəkə hesabları xarici ölkələrdə açılır ki, buna qarşı da mübarizə aparmaq çətindir. Ona görə bu məsələyə tamamilə yenidən baxılmalı, sosial şəbəkələrdə təhqir və böhtanlara qarşı yeni hüquqi mübarizə və nəzarət metodu tətbiq olunmalıdır. Çünki sosial şəbəkələrdə bəlli qrupların istifadə etdiyi qeyri-insani mübarizə metodları ümumilikdə cəmiyyəti narahat edir. Belə hallara qarşı hər kəs sərt reaksiya verməli, cəmiyyətimizə qarşı hörmətsizliyin qarşısı dərhal alınmalıdır.

***Novruzəli ASLANOV,***
***Milli Məclisin deputatı,***
***Azərbaycan Qızıl Aypara Cəmiyyətinin prezidenti***

# Hesablama Palatasının nümayəndə heyəti Küveyt Dövlət Auditi Bürosunda olmuşdur

Fevralın 12-13-də Hesablama Palatasının sədri Vüqar Gülməmmədovun rəhbərliyi ilə nümayəndə heyəti Küveyt Dövlət Auditi Bürosunun prezidentinin vəzifəsini icra edən Adel Al-Saravinin dəvəti ilə Küveytdə səfərdə olmuşdur.



Səfər Azərbaycan Respublikası Hesablama Palatası və Küveyt Dövlət Auditi Bürosu arasında əməkdaşlığın hər iki ali audit qurumu üçün aktual sahələr üzrə daha da genişləndirilməsi məqsədini daşımışdır.

Küveyt Dövlət Auditi Bürosunun inzibati binasında keçirilən görüşdə Adel Al-Saravi Hesablama Palatası və DAB arasında mövcud münasibətlər, DAB-ın Azərbaycan AAQ-i tərəfindən təşkil edilən beynəlxalq tədbirlərdə iştirakı haqqında məlumat vermiş və cari görüşün hər iki qurumun potensialının artırılması istiqamətində verəcəyi töhfəyə əmin olduğunu bildirmişdir. Daha sonra Azərbaycan nümayəndə heyətinin rəhbəri Vüqar Gülməmmədov Küveyt həmkarlarının dəvəti üçün minnətdarlığını bildirmiş və Azərbaycan Respublikasının dövlət maliyyə idarəetmə sistemi, Hesablama Palatasının fəaliyyətini tənzimləyən qanunvericiliyin formalaşma tarixçəsi və Azərbaycan AAQ-i qarşısında duran hədəf və çağırışları diqqətə çatdırmışdır.

Təsdiq edilmiş proqrama əsasən görüş hər iki tərəfin təqdimatları formatında olması nəzərdə tutulmuşdur. Küveyt AAQ-nin təmsilçiləri auditin idarə edilməsinin elektron sistemi, illik təlim planı, 2018-ci il üzrə vətəndaş hesabatı, dövlət vəsaitlərinin qorunmasında Küveyt AAQ-nin heyəti tərəfindən bilik mübadiləsinin paylaşımında rolu və auditlərdə informasiya texnologiyalarının rolu mövzularında çıxış etmişlər. Çıxışları müşayiət edən intensiv müzakirələr zamanı Hesablama Palatasının nümayəndə heyətinin rəhbəri və nümayəndələri qeyd edilən sahələr üzrə analoji təcrübələrin mövcudluğu, həmçinin, bununla əlaqəli görülmüş işlər barədə qarşı tərəfi məlumatlandırmışlar.

Görüşün növbəti hissəsində Hesablama Palatasının nümayəndə heyəti palatanın fəaliyyəti, beynəlxalq əməkdaşlıq çərçivəsi və həyata keçirilən tvinninq layihəsinə dair təqdimatlar ilə çıxış etmişlər. Azərbaycan AAQ-nin dövlət büdcəsinin layihəsinə dair verdiyi rəy və onun hazırlanması metodologiyası Küveyt tərəfinin xüsusi marağına səbəb olmuşdur. Görüşdə iştirak edən Küveyt DAB-nin rəhbərliyi sözügedən sahə üzrə Azərbaycan təcrübəsini tətbiq etmək niyyətini və bununla əlaqədar əlavə müzakirə və görüşlərin keçirilməsinin vacibliyini vurğulamışdır.

Daha sonra Vüqar Gülməmmədov Küveyt DAB-nin xatirə kitabında qeydlərini etmişdir.

Hesablama Palatasının nümayəndə heyətini Büronun informasiya mərkəzi, onun fəaliyyəti və texniki bazası ilə tanış etmişlər.

***"Azərbaycan"***

# Ədliyyə fəaliyyəti dövlət başçısının tapşırıqlarına uyğun təkmilləşir

Fevralın 13-də Ədliyyə Nazirliyinin geniş kollegiya iclası keçirilib. Ədliyyə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, kollegiyada ədliyyə orqanlarının Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Nazirlər Kabinetinin 2018-ci ilin yekunlarına dair iclasında verdiyi tapşırıqlardan, həmçinin dövlət orqanlarının strukturunun optimallaşdırılması və idarə edilməsinin təkmilləşdirilməsinə dair 2019-cu il 17 yanvar tarixli fərmanından və digər göstərişlərindən irəli gələn vəzifələri müzakirə olunub.

Ədliyyə naziri Fikrət Məmmədov ümummilli lider Heydər Əliyevin müəyyən etdiyi hərtərəfli inkişaf strategiyasının Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla həyata keçirildiyini, Azərbaycanın 2018-ci ildə sürətli tərəqqisinin, sabitliyinin və təhlükəsizliyinin təmin edildiyini, qarşıya qoyulan bütün strateji inkişaf hədəflərinə nail olunduğunu vurğulayıb.

Qeyd olunub ki, aparılan genişmiqyaslı islahatlara uyğun olaraq dövlət orqanlarının fəaliyyətinin müasirləşdirilməsi, büdcə vəsaitlərinə qənaət edilməklə idarəetmənin təmin edilməsi üzrə ardıcıl tədbirlər görülür. Azərbaycan ədliyyəsi də islahatlar aparılmaqla təkmilləşir, vətəndaşlara daha operativ, rahat və şəffaf xidmətlərin göstərilməsi, əlçatanlığın asanlaşdırılması məqsədilə müasir texnologiyaların və innovasiyaların tətbiqi genişləndirilir.

Kollegiyada ötən il ədliyyə orqanları tərəfindən görülmüş işlər əyani təqdimat keçirilməklə ətraflı təhlil edilib. Məlumat verilib ki, qanunvericilik sahəsində bilavasitə nazirlik tərəfindən 2018-ci ildə əvvəlki illə müqayisədə 30 faiz çox - 1800-ə yaxın normativ hüquqi akt layihəsi hazırlanıb, 3300-dən çox akt hüquqi ekspertizadan keçirilib. Əhali üçün daim açıq olan Hüquqi Aktların Dövlət Reyestrinin elektron saytına **(www.huquqiaktlar.gov.az)** və milli qanunvericiliyin elektron bazasına **(www.e-qanun.az)** ümumilikdə 6200-ə yaxın sənəd daxil edilib və il ərzində həmin informasiya resurslarına başçəkmələrin sayı 65 faiz artaraq 1,3 milyonu ötüb. Şəffaflığın artırılması, açıq hökumət prinsiplərinin təşviqi məqsədilə nazirlik tərəfindən aparılan 10 internet saytın interaktiv rejimdə fəaliyyəti təmin olunub, vətəndaşlara göstərilən 30-dan çox elektron xidmətlərdən istifadənin sayı artaraq 5 milyonu ötüb.

Dövlət başçısının vətəndaşların müraciətlərinə qayğı və həssaslıqla yanaşılması ilə bağlı tapşırıqları diqqətdə saxlanılaraq 12800-ə yaxın vətəndaş nazirlikdə, bölgələrdə və "virtual qəbul" məntəqələri vasitəsilə qəbul edilib, qaldırılan məsələlərlə bağlı zəruri tədbirlər görülüb. Əhalinin daha çox təmasda olduğu notariat ofislərində əvvəlki illə müqayisədə təxminən 14 faiz çox - 4,4 milyondan artıq notariat hərəkəti rəsmiləşdirilib, həmçinin vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı ilə bağlı 317 minə yaxın əməliyyat aparılıb və bu əməliyyatlarla bağlı 51 milyon manata yaxın dövlət rüsumu və digər ödənişlər alınıb. Daşınmaz əmlakla əlaqədar müqavilələr üzrə notariuslar tərəfindən təxminən 50 milyon manata yaxın vergi dövlət büdcəsinə köçürülüb ki, bu da əvvəlki illə müqayisədə 26 faiz çoxdur. Eyni zamanda "ASAN xidmət" mərkəzlərində fəaliyyət göstərən ədliyyə qurumları tərəfindən rəsmiləşdirilən əməliyyatlar 2018-ci ildə bu mərkəzlərdə verilmiş hazır sənədlərin 48 faizini təşkil edib.

Dövlət başçısının qanunvericilik təşəbbüsü ilə 2018-ci il noyabrın 15-də "Notariat haqqında" qanuna edilmiş əsaslı dəyişikliklər bu sahədə fəaliyyətin müasirləşdirilməsinə, ən yeni texnologiyaların və innovasiyaların tətbiqinə imkan yaradıb. Vətəndaşlara səyyar və məsafədən notariat xidmətlərinin göstərilməsi məqsədilə xüsusi notariat çantası, elektron ədliyyə köşkü, dünya təcrübəsində rast gəlinməyən və Azərbaycan məhsulu olan, notariat ofisləri və hərəkətləri ilə bağlı zəruri məlumatları vahid mənbədən əldə etməyə imkan verən mobil notariat proqramı hazırlanıb. Tətbiq olunan bu innovasiyalar ötən ilin sonunda Bakı şəhəri Binəqədi Rayon Məhkəməsinin yeni binasının açılışı zamanı dövlət başçısına nümayiş etdirilib. Qeyd olunub ki, vətəndaş cəmiyyətinin inkişafında mühüm rol oynayan və nazirlik tərəfindən dövlət qeydiyyatına alınmış qeyri-kommersiya təşkilatlarının ölkədə ümumi sayı 4350-yə, KİV-in sayı isə 5250-yə çatıb.

Nazirliyin mühüm fəaliyyət istiqamətlərindən olan məhkəmə qərarlarının icrası sahəsində iş həcmi əhəmiyyətli dərəcədə artaraq 2018-ci ildə icra sənədlərinin sayı 873 minə çatıb, onlardan 460 minə yaxınının icrası təmin olunub, qalan işlərin icrası üzrə tədbirlər davam etdirilir. Görülən tədbirlər nəticəsində hüquqi və fiziki şəxslərə əvvəlki illə müqayisədə 2 dəfədən artıq - 1 milyard 150 milyon manatdan çox vəsait ödətdirilib. Məhkəmə qərarlarının icrasından qərəzli boyun qaçıran 4640 nəfər inzibati məsuliyyətə cəlb olunub, 446 şəxs barəsində cinayət işi başlanılıb.

Dövlət başçısının cəza siyasətinin humanistləşdirilməsinə dair sərəncamına uyğun olaraq Cinayət Məcəlləsinə edilmiş dəyişikliklərlə əlaqədar məhkəmələr tərəfindən 6000-ə yaxın məhkum haqqında sənədlərə baxılması təmin edilib, 4200-dən çox şəxs cəzadan tamamilə azad olunub və ya cəza müddətləri azaldılıb.

Nazirlik tərəfindən ədalət mühakiməsi əleyhinə, o cümlədən məhkəmə qərarlarının icra olunmaması və digər cinayətlərlə bağlı 673 iş üzrə ibtidai istintaq tamamlanıb, bu zaman fiziki və hüquqi şəxslərə vurulmuş 2 milyon manata qədər ziyan istintaqın gedişində ödətdirilib.

Məhkəmə ekspertizası mərkəzinə il ərzində 41 ekspert ixtisası üzrə 36 minə yaxın iş daxil olub, bu zaman ekspertlər 805 mindən çox suala cavab verməklə qaldırılmış məsələlərin 99,7 faizini həll ediblər.

Dövlət gənclər siyasətinə uyğun olaraq yeni nəsil kadr korpusunun formalaşdırılması üzrə tədbirlər davam etdirilib, açıq müsabiqələr nəticəsində əksəriyyətini gənclər təşkil edən 267 nəfər ədliyyə orqanlarına qulluğa qəbul olunub, bütövlükdə isə ötən il ərzində 576 vakant ştat vahidi komplektləşdirilib. Eyni zamanda, dövlət başçısının təşəbbüsü ilə yaradılmış könüllülər institutunun təşviqinə xüsusi diqqət yetirilib, bu sahədə müvafiq ali təhsil müəssisələri və tələbə-gənclər təşkilatları, eləcə də Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə səmərəli əlaqələr qurulub və 1200-ə yaxın könüllü ədliyyə və məhkəmə fəaliyyətinə cəlb olunub, onların bir qismi üçün Ədliyyə Akademiyasında xüsusi təlimlər keçirilib.

Kollegiyada, həmçinin bildirilib ki, 2018-ci ildə nazirliyin beynəlxalq hüquq əməkdaşlığının genişləndirilməsi üzrə tədbirlər görülüb, Türkiyə, Belarus, Serbiya və Əlcəzairin ədliyyə nazirləri ölkəmizə səfərlər edib, hüquqi sahədə mühüm sənədlər imzalanıb, habelə nümayəndə heyətimiz Avstriya, Xorvatiya və Malayziyada mötəbər beynəlxalq tədbirlərdə iştirak edib.

Kollegiya iclasına dəvət olunmuş QHT nümayəndələri çıxış edərək ədliyyə fəaliyyətinin təkmilləşdirilməsi üzrə görülən tədbirləri yaxından izlədiklərini, bu sahədə nailiyyətlərin və tətbiq olunan innovasiyaların cəmiyyətdə daha geniş təbliğ olunmasının əhəmiyyətini qeyd edib, Ədliyyə Nazirliyi tərəfindən şəffaflığa, ictimai iştirakçılığa hər zaman xüsusi önəm verilərək vətəndaş cəmiyyəti nümayəndələrinin ədliyyənin ayrı-ayrı fəaliyyət istiqamətlərinə cəlb olunmasını və qarşılıqlı fəaliyyətin səmərəliliyinin artırılmasını vurğulayıblar.

İclasda görülmüş işlərlə yanaşı, ədliyyə fəaliyyətində mövcud nöqsan və çatışmazlıqlar müzakirə edilib, işin dövlət başçısının tələbləri səviyyəsində müasirləşdirilməsi, innovativ metodlar tətbiq edilməklə səmərəli təşkili, o cümlədən rəqəmsal idarəçiliyin tətbiqi, qanunvericiliyin təkmilləşdirilməsi, strukturun optimallaşdırılması ilə bağlı və digər konkret tapşırıqlar verilib.

Eyni zamanda, dövlət başçısının 2018-ci il 18 dekabr tarixli sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan ədliyyəsinin inkişafına dair 2019-2023-cü illər üçün Dövlət Proqramı"nın icrası ilə bağı nazirliyin üzərinə mühüm vəzifələrin düşdüyü qeyd edilərək ədliyyənin gələcək inkişafında "yol xəritəsi" olan bu mühüm sənədin vaxtında və mütəşəkkil icrasının vacibliyi vurğulanıb.

Azərbaycan Prezidentinin məmur-vətəndaş münasibətlərinin sağlam zəmində qurulması, insanlara layiqli xidmət göstərilməsi, korrupsiyanın və digər neqativ halların qarşısının alınması, şəffaflığın və dürüstlüyün tam təmin olunması barədə tələbləri xüsusilə diqqətə çatdırılaraq etik davranış qaydalarına dönmədən əməl olunması, vətəndaş məmnunluğunun yüksəldilməsi ilə bağlı və digər konkret göstərişlər verilib.

Sonda ədliyyə fəaliyyətini tənzimləyən bəzi normativ hüquqi akt layihələrinə baxılıb, bir sıra qeyri-kommersiya hüquqi şəxslər dövlət qeydiyyatına alınıb.

# Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti qarşıya qoyulan vəzifələri yüksək keyfiyyətlə yerinə yetirməyə qadirdir




Fevralın 13-ü Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin (SHXÇDX) yaranması günüdür. AZƏRTAC xəbər verir ki, bu münasibətlə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəhbərliyi və şəxsi heyəti Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini dərin ehtiramla yad edib, məzarı önünə gül dəstələri qoyub.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər güllər düzülüb.

Sonra Xidmətin əməkdaşları Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini anaraq məzarları üzərinə tər çiçəklər düzüb, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyublar.

Daha sonra Xidmətin aparatında qurumun yaradılmasının 7 illiyinə həsr olunan təntənəli mərasim keçirilib.

Əvvəlcə Dövlət himni səsləndirilib.

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi, general-leytenant Arzu Rəhimov qurumun yaranması, inkişafı və fəaliyyəti barədə geniş məruzə ilə çıxış edərək şəxsi heyətə təbriklərini çatdırıb. Bildirib ki, bu gün doğma Azərbaycanımız hər birimizin gözü qarşısında sürətlə və hərtərəfli inkişaf edir. Bu inkişaf prosesinin şahidi olmaq, onu izləmək çox qürurvericidir. Ulu öndər Heydər Əliyevin müəyyən etdiyi strategiyaya uyğun olaraq Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə müasir inkişaf dövründə ölkəmizin tərəqqisi və davamlı inkişafı istiqamətində genişmiqyaslı işlər müvəffəqiyyətlə davam etdirilir.

Xidmət rəisi qeyd edib ki, ölkəmizdə aparılan islahatların tərkib hissəsi olaraq Prezident İlham Əliyevin 2012-ci il 13 fevral tarixli Fərmanı ilə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti yaradılıb. Ötən yeddi ildə istər idarəetmənin təkmilləşdirilməsi, istər qanunvericilik, istərsə də onun tətbiqi ilə bağlı bir sıra ciddi addımlar atılıb. Çağırış və səfərbərlik resurslarını tənzimləyən mükəmməl mexanizmin yaradılması istiqamətində zəruri tədbirlər görülüb. SHXÇDX müstəqil mərkəzi icra hakimiyyəti orqanı kimi Silahlı Qüvvələrlə cəmiyyət arasında bir növ körpü rolunu oynayır və yeddi ildir ki, bu vəzifələri müvəffəqiyyətlə icra etməklə dövlətin və vətəndaşların xidmətindədir.

Vurğulanıb ki, Ali Baş Komandanın nəzarəti altında Silahlı Qüvvələrin təkmilləşdirilməsi prosesində SHXÇDX də daim diqqət mərkəzindədir. Xidmətin qarşısına vətəndaşların hərbi-vətənpərvərlik tərbiyəsi, müddətli həqiqi hərbi xidmətə çağırışaqədərki hazırlığı, həqiqi hərbi xidmətə çağırışı, ehtiyatda xidmət keçməsi, səfərbərlik hazırlığı və səfərbərlik üzrə çağırışı, xüsusi hərbi ixtisaslar üzrə hazırlığı, Silahlı Qüvvələrimizin sülh dövründə çağırışçılarla, səfərbərlik zamanı və müharibə dövründə hərbi vəzifəlilərlə və hərbi-nəqliyyat vasitələri ilə, eləcə də mülki heyət vəzifələrində işləmək üçün vətəndaşlarla komplektləşdirilməsi istiqamətində dövlət siyasətinin həyata keçirilməsi kimi mühüm vəzifələr qoyulub. Dövlət başçısının həyata keçirdiyi islahatlar, qəbul etdiyi qərarlar Xidmətin şəxsi heyətini bu vəzifələrin icrası üçün daima səfərbər olmağa çağırır.

A.Rəhimov diqqətə çatdırıb ki, indiki dövrdə hər bir azərbaycanlı orduda xidmət etməyi özünün ən böyük vətənpərvərlik borcu hesab edir. Çünki hər bir çağırışçı, ehtiyatda olan hərbi qulluqçu əmindir ki, Azərbaycan Prezidentinin ordu quruculuğu sahəsində apardığı siyasətin əsasını Ermənistanın Azərbaycana təcavüzü nəticəsində işğal olunmuş ərazilərin azad edilməsi, qaçqın və məcburi köçkünlərin öz torpaqlarına qayıtmaları təşkil edir. Dövlət başçısı dəfələrlə bildirib ki, əgər biz məqsədimizə sülh yolu ilə nail ola bilməsək, onda hansı yolla olursa-olsun, düşmən tapdağı altında qalan ərazilərimizi azad edəcəyik.

General-leytenant Arzu Rəhimov göstərilən yüksək etimadı doğrultmaq, qarşıda duran vəzifələri layiqincə yerinə yetirmək üçün Xidmətin şəxsi heyətinin bundan sonra da səylərini əsirgəməyəcəyini bildirib.

Xidmət rəisi əlavə edib ki, ötən dövrdə Xidmətin "Vahid elektron informasiya sistemi" və elektron xidmətlərin göstərilməsi, ölkəmizdə vətəndaşların həqiqi hərbi xidmətə çağırış sistemi əsaslı şəkildə təkmilləşdirilib. Çağırışçıların hərbi uçotunun dəqiq və düzgün aparılmasına nəzarət artırılıb, şəffaflığın təmin edilməsi, vətəndaşlarla maneəsiz və birbaşa əlaqənin qurulması məqsədilə Xidmətin internet saytı üzərindən elektron xidmətlərin həyata keçirilməsi ilə yanaşı, sosial şəbəkə hesabları yaradılıb. SHXÇDX-nin rəsmi internet saytı bu il iki dildə (Azərbaycan və ingilis dillərində) yenidən müasir standartlara uyğun olaraq hazırlanıb və istifadəyə verilib.

Mərasimdə iştirak edən qonaqlar adından çıxış edən ehtiyatda olan general-mayor Məmmədhüseyn Sarıyev və digər natiqlər Xidmətin şəxsi heyətini ildönümü münasibətilə təbrik edib və xoş arzularını çatdırıblar.

Tədbirdə Xidmətin bir qrup hərbi qulluqçusunun təltif edilməsi haqqında Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı, həmçinin SHXÇDX rəisinin imzaladığı əmrlər elan olunduqdan sonra xidmətdə fərqlənənlərə dövlət təltifləri, həmçinin hərbi rütbələr və fəxri fərmanlar təqdim olunub.

Mərasimdə, həmçinin Xidmətlə əməkdaşlıq edən vətəndaş cəmiyyəti institutlarının, veteranların, şəhid ailələrinin nümayəndələrinə təltiflər və hədiyyələr təqdim edilib.

Xidmətin yaradılmasının 7-ci ildönümü münasibətilə qurumun yerli idarə, şöbə və bölmələri tərəfindən respublikamızın rayonlarında da tədbirlər təşkil olunub.

# Xalqımız güclü ordusuna güvənir

Dünən Şəki Şəhər İcra Hakimiyyəti və Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Şəki rayon şöbəsinin təşkilatçılığı ilə Heydər Əliyev Mərkəzində Xidmətin yaradılmasının 7-ci ildönümü qeyd edilib. Əvvəlcə ümummilli liderin abidəsi önünə əklillər qoyulub. Ardınca Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib.







Rayon ictimaiyyəti nümayəndələrinin də iştirak etdiyi tədbirdə çıxış edən Şəki Şəhər İcra hakimiyyətinin başçısı Elxan Usubov bildirib ki, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yaradılmasından 7 il keçir. İcra başçısı bu münasibətlə xidmətin bütün kollektivini, eyni zamanda Şəki şəhər şöbəsinin əməkdaşlarını ürəkdən təbrik edərək gələcək fəaliyyətlərində uğurlar arzulayıb. Elxan Usubov qeyd edib ki, Prezident İlham Əliyevin müəyyən etdiyi ordu quruculuğu siyasətinin tələb olunan səviyyədə icrasının təmin edilməsində Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin xüsusi rolu var. Bu qurum fəaliyyət istiqamətinə uyğun olaraq Azərbaycan Respublikası vətəndaşlarının hərbi-vətənpərvərlik tərbiyəsi, yeniyetmə və gənclərdə vətəndaşlıq hisslərinin yüksəldilməsi, onların Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizəyə hazırlıq ruhunda tərbiyə edilməsi məqsədi ilə mühüm tədbirlər həyata keçirir. Qısa müddətdə çox böyük inkişaf yolu keçən, ordu quruculuğu prosesində mühüm rol oynayan bu qurum yarandığı gündən gənclərin hərbi xidmətə yola salınması, ordumuzun vətənpərvər, sağlam ruhlu gənclərlə təmin edilməsi istiqamətində qarşıya qoyulmuş vəzifələri layiqincə yerinə yetirir.

E.Usubov çıxışını belə yekunlaşdırıb: - "Bu gün ordu quruculuğu prosesi ölkə Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Hər il hərbi xərclər üçün dövlət büdcəsindən ayrılan vəsait artırılır. Ali Baş Komandan İlham Əliyevin xüsusi diqqət və qayğısı sayəsində Milli Ordumuz hazırlıq, texniki təchizat, silah baxımından dünyanın ən qabaqcıl orduları sırasındadır. Belə bir orduda xidmət keçmək hər bir Azərbaycan gənci üçün böyük şərəfdir. Güclü ordu xalqımızın dayağıdır.

Bu gün bizim ordumuz təmas xəttində vəziyyətə tam şəkildə nəzarət edir. Azərbaycan tam üstünlüyü əldə edib və tarixi ədalət, ərazi bütövlüyümüz mütləq bərpa olunacaq. Ordumuz torpaqlarımızı düşmən tapdağından azad etməyə hər an hazırdır və bununla bağlı Ali Baş Komandanımızın əmrini gözləyir.

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Şəki rayon şöbəsinin rəisi, polkovnik-leytenant Yalçın Sadıqlı bildirdi ki, şöbənin kollektivi öz işini Şəki Şəhər İcra Hakimiyyəti və digər dövlət qurumları ilə əməkdaşlıq şəraitində qurur. Şəki şəhərində hərbi xidmətə çağırılan gənclərin təntənəli şəkildə ordu sıralarına yola salınması artıq bir ənənəyə çevrilib. Ehtiyata buraxılmış əsgər və zabitlərlə mütəmadi olaraq görüşlər keçirilir. Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi daim yad olunur, onların ailələrinə, Qarabağ müharibəsi əlillərinə, veteranlarına qayğı göstərilir. Eyni zamanda, gənclərin hərbi vətənpərvərlik ruhunda tərbiyəsi, sağlam inkişafı daim diqqət mərkəzində saxlanılır.

Tədbir çərçivəsində şəhid Aqşin Abdullayevin əziz xatirəsinə ithaf olunmuş "Həyatı nəsillərə örnək olan qəhrəman" kitabının təqdimat mərasimi keçirilib. Kitabın müəllifi şəhərin ziyalılarından olan Kamil Adışirinovdur.

Şəhidin anası Dursun Abdullayeva tədbirdə çıxış edərək onlara göstərilən diqqət və qayğıya görə Ali Baş Komandan İlham Əliyevə minnətdarlığını bildirib.

Şəhidin döyüş yoldaşı, "Azərbaycan bayrağı" ordenli gizir Tahir Misirxanov çıxışında Aqşinin şərəfli döyüş yolu keçməsindən bəhs edib. O, yazılan kitabın Ağşin Abdullayevin qismində bir daha şəhidlərin ruhuna böyük ehtiram və yüksək dəyər verilməsini diqqətə çatdırıb.

***Əli SƏLİMOV,***
***"Azərbaycan"***

# İlham Əliyev qayğısı idmanın inkişafının əsas zəminidir

## Azərbaycan yelkənçiləri bu etimadı layiqincə doğruldurlar

**Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu idman siyasəti və atletlərimizin qazandıqları nailiyyətlər sayəsində ölkəmiz beynəlxalq səviyyədə nüfuzlu dövlətlərdən biri kimi qəbul olunur. Dövlət tərəfindən hərtərəfli qayğı göstərilən idmançılarımız da bu etimadı layiqincə doğruldurlar. Elə bir mötəbər yarış yoxdur ki, orada ölkəmizi təmsil etməsinlər, medal və mükafatlar gətirməsinlər. Bu həm də müstəqil Azərbaycan dövlətinin gücünü, idmançılarının vətənpərvərliyini göstərir.**
**Həmçinin mövcud idman obyektləri yenidən qurulur, eyni zamanda yeniləri inşa edilir. Digər tərəfdən, Azərbaycan müntəzəm olaraq qitə və dünya miqyaslı idman yarışlarına evsahibliyi edir.**




### Nüfuzlu turnirlərin dəyişilməz ünvanı

Fərəhli haldır ki, qısa müddətdə idman sahəsində əldə edilmiş nailiyyətlər beynəlxalq idman təşkilatlarının diqqətindən də yayınmayıb. Məhz bu qurumların istəyi ilə ölkəmizdə onlarca olimpiya lisenziyalı beynəlxalq turnirlər, mötəbər yarışlar, dünya və Avropa çempionatları keçirilib. 2015-ci ildə tarixdə ilk dəfə təşkil edilən I Avropa Oyunlarını və 2017-ci ildə keçirilən IV İslam Həmrəyliyi Oyunlarını xüsusilə qeyd etmək lazımdır. 500 milyondan çox izləyici auditoriyası olan "Formula-1" yarışlarının daha 5 il ölkəmizdə keçirilməsinə qərar verilməsi isə Azərbaycanın idman ölkəsi olduğunu növbəti dəfə təsdiqlədi.

Prezident İlham Əliyevin vurğuladığı kimi Azərbaycanın uğurla evsahibliyi etdiyi beynəlxalq yarışlar ölkənin iqtisadi inkişafına da mühüm töhfələr verir: "2015-ci ildə keçirilmiş Avropa Oyunlarından sonra və 2016-cı ildə keçirilmiş birinci "Formula-1" yarışından sonra Azərbaycana gələn turistlərin sayı 22 faiz artdı. Ondan sonra - 2017-ci ildə İslam Həmrəyliyi Oyunları keçirilmişdir. Biz gördük ki, müsəlman ölkələrindən gələn turistlərin sayı kəskin artdı... Təkcə "Formula-1" yarışı birbaşa ölkəmizə, ölkəmizin xidmət sektoruna təxminən 300 milyon dollara yaxın vəsaitin daxil olmasına şərait yaratdı".

Xüsusi olaraq vurğulamaq lazımdır ki, belə nüfuzlu yarışlarda idman təşkilatlarımızın həyata keçirdikləri işlərə, möhtəşəm idman bazalarına, bütün əlaqədar təşkilatların birgə səylə nümunəvi fəaliyyətinə heyranlıqlarını gizlədə bilməyən xarici ölkə mütəxəssisləri, milli olimpiya komitələrinin rəhbərləri və üzvləri, ayrı-ayrı beynəlxalq federasiyaların nümayəndələri gələcəkdə öz ölkələrində mötəbər beynəlxalq yarışlar keçirməyə hazırlaşarkən Bakının təcrübəsindən istifadə edəcəklərini hər zaman söyləyirlər.

### Yelkənçilərin beynəlxalq qələbəsi

Sevindirici haldır ki, ötən il uğur qazanan idmançılar sırasında yelkənçilərimiz də var. Vurğulayaq ki, Azərbaycan Yelkənli İdman Federasiyasının rəhbərliyinin məqsədyönlü fəaliyyəti nəticəsində bu idman növü də ölkəmizdə uğurla inkişaf etməkdədir. Məhz rəhbərliyin əzmkarlığı sayəsində yelkənli idman növünə olan münasibət istər ölkə daxilində, istərsə də dünyada əsaslı şəkildə dəyişməkdədir.

Aktiv bazası 2014-cü ildən etibarən fəaliyyətə başlayan Azərbaycan Yelkənli İdman Federasiyasının əsas məqsədi hər zaman maddi-texniki bazanı gücləndirmək, məşqçi korpusunu formalaşdırmaq, komandaya yeni idmançıları cəlb etmək olub. Azərbaycan Yelkənli İdman Federasiyasında hazırda "Optimist" və "Laser" sinifləri üzrə iki komanda formalaşıb. Bu siniflər üzrə ayrı-ayrılıqda, xaricdən dəvət edilən 2 baş məşqçi fəaliyyət göstərir.

Məqsədlərə çatmaq üçün federasiya rəhbərliyi tərəfindən qabaqcıl Avropa şirkətlərindən yelkənli idman üzrə qayıqların gətirilməsi, eyni zamanda, qısa müddət ərzində beynəlxalq səviyyəli məşqçilərin Azərbaycana dəvət edilməsi təmin edilib.

Ölkəmizi beynəlxalq yarışlarda uğurla təmsil edən Azərbaycan Yelkənli İdman Federasiyasının təmsilçiləri ötən il Qazaxıstanın Aktau şəhərində keçirilən "Beynəlxalq Xəzər Kuboku" yarışında qələbə qazanaraq növbəti dəfə onlara göstərilən etimadı doğruldublar.

Turnirdə Azərbaycan idmançıları ilə yanaşı, Qazaxıstan və Özbəkistan təmsilçiləri də mübarizə aparıblar. Beynəlxalq turnirdə kişi idmançılarımız birinci və üçüncü yerlərdə, qızlarımız isə fəxri kürsünün hər üç pilləsində qərarlaşaraq medallara sahib olublar. Hər üç əyarlı medalları qazanan yelkənçilərimizin yarışda parlaq qələbələri əcnəbi məşqçilərin də diqqətini cəlb edib, onların uğuru böyük rəğbətlə qarşılanıb.

Yarışda Azərbaycanı Murad Hacızadə, Kristina Kərimova, Ayla Babayeva, Fidan Ağazadə, Səxavət Əzimov, Nicat Şükürov, İsmayıl Həmidov, heyətin rəhbəri Burcu Algon Giorgianni, "Optimist" sinfi üzrə baş məşqçi Seyhun Yıldız, köməkçi məşqçi Aleksandr Knyazev təmsil ediblər.

Yelkənli İdman Federasiyasının gənc yelkənçisi Kristina Kərimova isə Sloveniyada keçirilən "Easter Regatta" adlı beynəlxalq yarışda 139 idmançı arasından 4-cü yerdə qərarlaşaq yüksək nəticə göstərmişdi.









- Aktiv bazası 2014-cü ildən etibarən fəaliyyətə başlayan Azərbaycan Yelkənli İdman Federasiyasının əsas məqsədi maddi-texniki bazanı gücləndirmək, məşqçi korpusunu formalaşdırmaq, komandaya yeni idmançıları cəlb etmək olub. Azərbaycan Yelkənli İdman Federasiyasında hazırda "Optimist" və "Laser" sinifləri üzrə iki komanda formalaşıb.
- Beynəlxalq turnirdə kişi idmançılarımız birinci və üçüncü yerlərdə, qızlarımız isə fəxri kürsünün hər üç pilləsində qərarlaşaraq medallara sahib olublar.
- Komandamız Omanda "Mussanah Race Week 2019" təlim və yarışlarına qatılacaq. 23 ölkənin iştirak edəcəyi yarışlarda Azərbaycan yelkənçiləri "Optimist", "Laser4,7" və "Laser radial" sinifləri üzrə çıxış edəcəklər.

### Yelkənli idman növündə yüksəliş ili

2018-ci ildə yelkənli idman növündə ölkə daxili yarışlar da silsilə xarakter daşıyıb. Azərbaycan Yelkənli İdman Federasiyası tərəfindən təşkil olunan Federasiya kuboku üzrə iki gün ərzində "Laser" və "Optimist" siniflərinin yarışı keçirilib, "Windsurf sinfi"nin nümayişi olub. Yarışda həmçinin "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin "Xəzər" Yelkənli Qayıqlar İdman Klubunun "Laser-standard" sinfi üzrə komandası da iştirak edib. Çətin hava şəraitində gərgin mübarizə aparan yelkənçilər yarışı uğurla başa vurublar.

Maraqlı mübarizə şəraitində keçən yarışın yekununda "Optimist", "Laser 4.7", "Laser Standart" sinifləri üzrə yarışın qalibləri mükafatlandırılıblar. "Optimist" sinfi üzrə qaliblər Yelkənli İdman Federasiyasının üzvləri Ömər İsmayılov, Səxavət Əzimov və Fidan Ağazadə olublar.

"Laser 4.7" sinfi üzrə isə qalib adına da Yelkənli İdman Federasiyasının idmançıları İsmayıl Kərimov, Cavid Kərimov və Murad Allahverdi layiq görülüblər.

"Laser Standart" sinfi üzrə qaliblər isə "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin "Xəzər" Yelkənli Qayıqlar İdman Klubunun idmançıları Mixail Protasov, Tofiq Abdullayev və Ruslan Əzizov olublar.

Xatırladaq ki, yarış idman koordinatoru, hakim Burcu Algon Giorgianni, "Optimist" sinfinin baş məşqçisi Seyhun Yıldız, "Laser 4.7" sinfinin baş məşqçisi Tuğçe Subaşı, "Laser srandard" sinfinin baş məşqçisi Tatyana Srebnaya, köməkçi məşqçilər Aleksandr Knyazev, Anton Vilyayev tərəfindən idarə olunub.

Mayın 31-dən iyunun 3-dək isə milli komandanın hazırlığı, o cümlədən yerli məşqçilərin təcrübə qazanması məqsədilə təlim düşərgəsi təşkil olunub. Məşqlərin yüksək keyfiyyəti və bu istiqamətdə peşəkarlığın artırılması məqsədilə beynəlxalq səviyyəli məşqçi, altıqat dünya, dördqat Avropa çempionu, 30 il məşqçi kimi fəaliyyət göstərən Draqan Qasiç Azərbaycan Yelkənli İdman Federasiyası tərəfindən həmin təlimə cəlb edilib.

### İdmançılarımız "Mussanah Race Week 2019" təlim və yarışlarında

Yelkənli idman növünün inkişafı istiqamətində görülən tədbirlər bu il də davam etdirilir. Belə ki, komandamız Omanda "Mussanah Race Week 2019" təlim və yarışlarına qatılacaq. 23 ölkənin iştirak edəcəyi yarışlarda Azərbaycan yelkənçiləri "Optimist", "Laser4,7" və "Laser radial" sinifləri üzrə çıxış edəcəklər. Təlim və yarışlarda Azərbaycanı "Optimist" sinfi üzrə Ayla Babayeva, Fidan Ağazadə, Kristina Kərimova, Səxavət Əzimov, "Laser" sinfi üzrə Murad Allahverdi, İsmayıl Kərimov, Cavid Kərimov, heyətin rəhbəri Burcu Algon Giorgianni, "Optimist" sinfi üzrə baş məşqçi Seyhun Yıldız, "Laser" sinfi üzrə məşqçi Tuğçe Subaşı təmsil edəcəklər.

Təlim-məşq düşərgələrində iştirakın əsas məqsədi idmançılarımızın beynəlxalq yarışlara hazırlıqlarının təkmilləşdirilməsi, onların taktiki biliklərinin artırılması və müxtəlif hava şəraitlərində yarış təcrübələrinin daha da gücləndirilməsidir.

Şübhə yoxdur ki, yelkənli idman növü ölkəmizdə bu il daha da inkişaf edəcək və idmançılarımız Azərbaycana yeni-yeni uğurlar qazandıracaqlar.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

## Azərbaycan Respublikası Şəki Şəhər İcra Hakimiyyəti

### 2019-cu ildə Şəki şəhərində tikiləcək 48 mənzilli yaşayış binasının tikinti işlərinin satın alınması ilə əlaqədar

## *açıq tender elan edir*

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə qalmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikası vergilər və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında arayış;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
